

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bakının Xətai rayonunda Alim Məmmədov adına körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışı olub



3


№ 202 (7127)

1 noyabr 2024-cü il.
Qiymәti 60 qәpik


Azərbaycan - dünya birliyi üçün etibarlı və nüfuzlu

# TƏRƏFDAŞ!



4

Prezident İlham Əliyev Konqo Demokratik Respublikasının, Banqladeşin, Albaniyanın və Ruandanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

# Avropa - ABŞ-ın vassalı

"Qoca qitə"nin sığmadığı çoxqütblü dünyanın yeni reallığı



11

## Ağıllı və yaşıl şəhərlərə doğru !



9

## Necə bilək ki, diplomumuz tanınacaq?



12

## Fransa insanlıq üçün qara ləkədir




10

## Erkən yaşda D vitamini çatışmazlığı bu xəstəliklərə yol açır!




16

## Elmimiz xəstədirsə,...



8

# Yenilənən nəqliyyat infrastrukturu

## *Prezident İlham Əliyev Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə və Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub. dövlətimizin başçısına burada Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı avtobus və "TX5" markalı elektrik mühərrikli taksi nəqliyyat vasitələri təqdim edilib. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.***

Bildirildi ki, Zığ Elektrik Avtobus Parkının ümumi ərazisi 5,4 hektardır. Tutumu 210 elektrik avtobusu olan parkın ərazisində 60 şarj stansiyası mövcuddur.

Hazırda avtobus parkı Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı 160 avtobusdan ibarətdir. Dövlətimizin başçısına avtobusların texniki göstəriciləri barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, 2024-cü il istehsalı olan avtobusların istismar müddəti 15 il, sərnişin tutumu 83 nəfərdir. Nəqliyyat vasitəsinin uzunluğu 12 metrdən bir qədər çox, eni 2 metr yarım, hündürlüyü isə 3 metrdən artıqdır.













Avtobusların fəaliyyətini təmin edəcək 100 şarj cihazı "Luobinsen" şirkətinin istehsalıdır. Cihazların yükləyici gücü 320kW təşkil edir. Şarj cihazları həddindən artıq gərginlik, cərəyan, faza itkisi və digər çoxsaylı mühafizə funksiyalarına malikdir. Cihazlar şəhərin müxtəlif istiqamətlərində yerləşdiriləcək.

Eyni zamanda diqqətə çatdırıldı ki, elektrik mühərrikli "LEVC TX5" markalı plug-in hibrid taksilər İngiltərə növü olub Çin istehsalıdır. "Avro-6" standartlarına uyğun həmin avtomobillərin enerjidoldurma müddəti 30 dəqiqədir. Yalnız elektrik mühərriki ilə 130 kilometr, qoşulmuş benzin generator ilə isə 600 kilometr məsafə qət etmək imkanına malikdir. Avtomobil, həmçinin təcili əyləc, təkərlərin təzyiqinə nəzarət təchizatı, yol nişanlarını tanıma kimi müasir təhlükəsizlik sistemləri ilə təchiz olunub.

Avtobus parkında, həmçinin təmir mərkəzi, inzibati bina, transformator məntəqəsi, xidmət və texniki sahələr fəaliyyət göstərəcək. Marşrutların Monitorinq Mərkəzi isə avtobusların hərəkət marşrutlarını, qrafiklərini və sərnişin təhlükəsizliyini səmərəli şəkildə izləmək və idarə etmək üçündür. Burada gün ərzində 3 növbədə 24 saat xidmətin təşkil edilməsi və 83 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Qeyd edək ki, hazırda karbon emissiyasının azaldılması qlobal hədəfə çevrilib. Azərbaycan da bu hədəfə çatmaq üçün prioritetlər müəyyənləşdirib. Yaşıl texnologiyalardan istifadə bu istiqamətdə atılan addımlardandır. "Eko bus" layihəsi isə yaşıl texnologiyalardan istifadənin genişləndirilməsi məqsədi daşıyır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən həmçinin "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına qatarlar barədə məlumat verdilər.

Bildirildi ki, "Qlobalnıye Transportnıye Reşeniya" MMC ilə "Bakı Metropoliteni" QSC arasında bağlanmış müqaviləyə əsasən, 2024-2026-cı illər ərzində 65 yeni vaqonun (13 qatar tərkibi) istehsal edilərək Bakı metropoliteninə gətirilməsi nəzərdə tutulub. Həmin müqaviləyə uyğun olaraq, 2024-cü ildə 35 (7 qatar tərkibi), 2025-ci ildə 20 (4 qatar tərkibi), 2026-cı ildə isə 10 vaqon (2 qatar tərkibi) istehsal edilməlidir.

Diqqətə çatdırıldı ki, "81-765 B/766 B" seriyalı qatar tərkibi innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Vaqonlar "Bakı Metropoliteni" QSC-nin texniki şərtlərinə uyğun istehsal olunub və yığılaraq komplektləşdirilməsi Bakı metropolitenində təşkil edilir. Vaqonların yığılması prosesi digər metropolitenlər üçün nəzərdə tutulmuş standart layihə əsasında deyil, Avropanın ən yüksək texnoloji tələblərə cavab verən aparıcı istehsalçılarının avadanlıq və sistemləri ilə aparılır. Bakı metropoliteninin mürəkkəb relyefi, texniki xüsusiyyətləri, paytaxtın iqlimi, geoloji şəraiti nəzərə alınmaqla avadanlıqların istismar müddətində yüksək təhlükəsizlik tələblərinə cavab verməsinə, etibarlılığına, uzunömürlülüyünə, istehsal zəmanətinə, səmərəliliyinə və digər üstünlüklərinə diqqət yetirilib. Bu xüsusda, Avropa istehsalçıları ilə 9 müqavilə imzalanaraq avadanlıqların birbaşa Bakıya gətirilməsi təmin edilib. Nəticədə vaqonların yüksək keyfiyyət standartları təmin edilməklə yığılmasının Bakıda tamamlanaraq xəttə buraxılması nəzərdə tutulub.

Vaqonların Bakıda yığılaraq komplektləşdirilməsi, sazlama, həmçinin sınaq işlərinin aparılması məqsədilə Bakı metropoliteninə istehsalçı şirkətin 54 nəfərdən ibarət heyəti ezam edilib. Yeni nəsil qatarların hər birinin baş vaqonları 315, orta vaqonları 329 sərnişin üçün hesablanıb. Baş vaqonlarda 38, orta vaqonlarda 44 oturacaq var. Vaqonların qapıları 1400 mm olmaqla əvvəlki nəsil vaqonlarla müqayisədə 12 faiz daha genişdir. Qatarlarda əlil arabaları, iri yüklər və uşaq arabaları üçün çoxfunksiyalı zonalar, mikroiqlim nəzarəti, videomüşahidə, interaktiv sərnişin məlumatlandırma sistemləri, mobil cihazlar üçün USB portlar, orijinal işıq qrafikası mövcuddur. Vaqonlar hermetik olduğuna görə səs-küysüzdür və istilik izolyasiyasına malikdir. Əvvəlki nəsil qatarlarla müqayisədə vaqondan-vaqona birbaşa keçidlər sərnişinlərin qatar boyunca hərəkətini təmin edir. Bakıya gətirilmiş 7 qatardan 5-nin yığılaraq komplektləşdirilməsi, sazlanması və sınaq işləri başa çatdırılıb. Daha 2 qatarın xəttə buraxılması noyabrın 8-nə qədər təmin ediləcək. Dövlətimizin başçısı Bakıda komplektləşdirilən qatarların vaqonlarına baxdı.

Qeyd edildi ki, yeni qatarlar nəzərə alınmaqla, Bakı metropoliteninin vaqon parkında innovasiyalar baxımından sonuncu nəslə mənsub vaqonların ümumi sayı 150-yə çatdırılıb.

# Bakının Xətai rayonunda Alim Məmmədov adına körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışı olub

***Oktyabrın 31-də Bakının Xətai rayonundakı Alim Məmmədov adına körpələr evi-uşaq bağçası təmirdən sonra yenidən istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri bağçada yaradılmış şəraitlə tanış olublar. Uşaq bağçasının direktoru Liya Məcidova Birinci vitse-prezidentə və ailə üzvlərinə bağçada görülən işlər barədə məlumat verib.***

Bildirilib ki, 1958-ci ildə inşa olunan Alim Məmmədov adına körpələr evi-uşaq bağçası ötən müddətdə istismara yararsız vəziyyətə düşdüyünə görə təmirə ehtiyac yaranmışdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, körpələr evi-uşaq bağçası müasir tələblər səviyyəsində təmir olunub.



Yüz yerlik körpələr evi-uşaq bağçası zəruri avadanlıq və ləvazimatlarla təmin olunub. Bu məktəbəqədər müəssisədə uşaqlar 5 qrup üzrə təhsil alırlar. Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb, uşaqlar üçün oyun meydançası yaradılıb. Uşaqların təlim-tərbiyəsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun həyata keçirdiyi layihələr məktəbəqədər təlim-tərbiyə müəssisələrinin inkişafına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə səbəb olub. Gələcəyimiz olan uşaqların sosial rifahının yaxşılaşdırılmasına hesablanan belə tədbirlər ölkəmizdə aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.





# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin səkkizinci iclası keçirilib

Oktyabrın 31-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası olub. Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev artıq COP29-a sayılıgünlərin qaldığını qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan ötən dövr ərzində COP29-a ciddi hazırlıq prosesinin daha da sürətləndirildiyini və yekunlaşmaqda olduğunu vurğulayıb. Samir Nuriyev Prezident İlham Əliyevin oktyabrın 17-də Bakı Olimpiya Stadionunda aparılan genişmiqyaslı hazırlıq işləri ilə növbəti dəfə tanış olaraq tapşırıq və göstərişlər verdiyini nəzərə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycana və Prezident İlham Əliyevə hörmətin bariz nümunəsi olaraq COP29 Liderlər Sammitində 100-dən artıq dövlət və hökumət başçısının, vitse-prezidentlərin iştirakının gözlənildiyini bildirib.

Samir Nuriyev əlavə edib ki, COP29-da iştirak üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi vasitəsilə 50 mindən artıq şəxs qeydiyyatdan keçib və bu proses davam etdiyi üçün say daha da artacaq.

Təşkilat Komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev oktyabrın 10-11-də Bakıda keçirilmiş Pre-COP29 tədbirinə ünvanladığı müraciətində COP29-da yeni iqlim maliyyəsi hədəfi ilə bağlı razılaşmaya nail olunmasının vacibliyini vurğulayaraq, "Bakı Sazişi"nin əldə edilməsinin beynəlxalq ictimaiyyətin ümumi nailiyyəti kimi tarixə düşəcəyinə inamını ifadə edib. Bu xüsusda, Samir Nuriyev deyib ki, Azərbaycan tərəfinin xarici tərəfdaşlarla təmasları zamanı COP29-da uğurlu nəticələrin əldə edilməsi imkanlarının daha da artdığı aydın hiss olunur.




Prezident Administrasiyasının rəhbəri COP29 zamanı Bakıda nəqliyyatın planlı şəkildə təşkil olunması ilə bağlı hazırlanmış Nəqliyyat Planının icrasının təmin edilməsinin vacibliyini vurğulayıb.

Samir Nuriyev, eyni zamanda, Bakı Olimpiya Stadionunda yekunlaşmaqda olan hazırlıq işləri, dövlət qurumları tərəfindən beynəlxalq tərəfdaşlarla birlikdə təşkil ediləcək tədbirlər və digər məsələlər barədə danışıb.



Təşkilat Komitəsinin sədri xarici medianın və qeyri-hökumət təşkilatlarının da COP29-da iştiraka böyük maraq göstərdiyini bildirib. Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun illik sessiyası və hazırda Kolumbiyada işini davam etdirən BMT-nin "Bioloji Müxtəliflik haqqında" Konvensiyasına Tərəflərin Konfransı da daxil olmaqla, COP29-la bağlı ümumi gedişat barədə danışıb. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev media-kommunikasiya sahəsində həyata keçirilən fəaliyyət və vətəndaş cəmiyyətinin COP29-a töhfəsi ilə bağlı çıxış edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Bakı Olimpiya Stadionunda görülən işlər, paytaxtda keçirilən nəqliyyat monitorinqləri və digər təşkilati-logistika məsələləri barədə danışıb. Xarici işlər naziri Ceyhun Bayramov COP29 zamanı qəbul edilməsi nəzərdə tutulan mühüm sənədlər, xüsusilə yeni iqlim maliyyəsi hədəfi ətrafında son vəziyyət barədə çıxış edib.

Energetika naziri Pərviz Şahbazov Azərbaycanda yaşıl enerji sahəsində həyata keçirilən işlər, Energetika Nazirliyinin xətti ilə COP29 zamanı təşkil edilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb. Milli Məclisin deputatı, COP29-un İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai Bakı İqlim Həftəsi və keçirilən digər tədbirlərlə bağlı məlumat verib.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov COP29-un təşkili prosesində miqrasiya idarəçiliyi barədə danışıb. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev COP29 zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan işlər barədə məlumat verib.

COP29-un Gənc iqlim çempionu Leyla Həsənova gənclərin iqlim fəaliyyətində iştirakı sahəsində görülən işlər barədə danışıb. İclasda Bakı Olimpiya Stadionunda hazırlıq işlərinin son vəziyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın COP29-da Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti tarixi uğuruna imza atacağına əminliyini ifadə edib, COP29 Tədbirlər Planının icrasının davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

***Prezident İlham Əliyev oktyabrın 31-də Albaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Besart Kadianın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib.***

# Azərbaycan - dünya birliyi üçün etibarlı və nüfuzlu TƏRƏFDAŞ!

## Prezident İlham Əliyev Konqo Demokratik Respublikasının, Banqladeşin, Albaniyanın və Ruandanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycan və Albaniya prezidentlərinin qarşılıqlı səfərlərinin və Albaniyanın Baş nazirinin ölkəmizə səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Azərbaycan Prezidenti Albaniyanın Baş nazirinin bir neçə gündən sonra COP29-da iştirak edəcəyini də vurğulayaraq, bütün bunların ölkələrimiz arasında yaxın tərəfdaşlıq əlaqələrini nümayiş etdirdiyini dedi. Ölkələrimizin beynəlxalq səviyyədə bir-birini həmişə dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın təmsil olunmadığı beynəlxalq təşkilatlarda Albaniya hökumətinin mövqeyimizi dəstəkləməsini yüksək qiymətləndirdi.

Səfir Albaniyanın Baş naziri Edi Ramanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Albaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi. Besart Kadia Azərbaycanda səfir kimi fəaliyyətə başlamaqdan məmnunluğunu bildirərək, ölkələrimiz və xalqlarımız arasında dostluğun və mədəni əlaqələrin önəminə toxundu.

Diplomat Albaniyanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyini bir daha ifadə etdi.

COP29 tədbirinin əhəmiyyətini vurğulayan səfir bu cür genişmiqyaslı tədbirlə bağlı Azərbaycanda həyata keçirilən hazırlıq işlərinin dərin təəssürat hissi yaratdığını dedi. Söhbət zamanı iqtisadi əməkdaşlığımızın enerji, nəqliyyat, ticarət, turizm və digər sahələri əhatə etməsindən məmnunluq ifadə olundu, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlıq bildirildi.









Dünən Prezident İlham Əliyev Konqo Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İvan Vanqu Nqimbinin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizə müxtəlif istiqamətlərdə yeni təkan verilməsinin zəruriliyini qeyd edərək, siyasi əlaqələrin yaxşı səviyyəyə çatdığını, ticarət və iqtisadi sahələrdə isə görüləsi çox işlərin olduğunu dedi.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar, ilk növbədə, BMT və Qoşulmama Hərəkatı çərçivəsində bu günə qədər ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı və bunun gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Səfir, ilk növbədə, Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekedinin salamlarını və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi ilə bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Konqo dövlətinin başçısına çatdırmağı xahiş etdi. Səfir Azərbaycan ilə Konqo arasında təhsil, bank, maliyyə, mədənçilik, təhlükəsizlik sektorlarında və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Konqo Demokratik Respublikasının Prezidentinin bu tədbirdə iştirak edəcəyini vurğuladı. Prezident İlham Əliyev Konqo Prezidentinin COP29 tədbirində iştirak edəcəyindən məmnunluğunu bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanul Haqın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Banqladeş arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, siyasi əlaqələrimizin, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, investisiya və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Səfir Banqladeş Xalq Respublikasının Prezidenti Məhəmməd Şahabuddinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Banqladeş dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı əvvəllər Banqladeş Prezidenti ilə təmaslarını xatırlayaraq Məhəmməd Şahabuddinin COP29-da iştirak edəcəyini məmnunluqla vurğuladı, ona fəaliyyətində uğurlar arzuladı.

Amanul Haq ikitərəfli münasibətlərlə bağlı xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. COP29-un əhəmiyyətinə toxunan səfir bu tədbirdə Prezident səviyyəsində təmsil olunacaqlarından məmnunluqlarını bildirdi.

Prezident İlham Əliyev dünən həmçinin Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çarlz Kayonqanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin, ticarət, investisiya, insanlar arasında əlaqələr və digər sahələrdə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin önəminə toxundu. Prezident İlham Əliyev BMT, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

COP29-da Ruanda Prezidentinin iştirak edəcəyindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu tədbirin önəminə toxundu, onun iqlim dəyişmələri ilə bağlı qlobal səviyyədə müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğuladı və Azərbaycanın bu sahədə fəal iştirak etdiyini dedi.

Çarlz Kayonqa Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, ölkəsinin Prezidenti COP29-da iştirakını səbirsizliklə gözləyir. Səfir vurğuladı ki, Ruanda Prezidenti ona Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini deyib və ölkələrimizin birbirindən uzaqda yerləşməsinə baxmayaraq, əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Ruanda dövlətinin başçısına çatdırmağı xahiş etdi. Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərə dair söylədiyi fikirlərə görə minnətdarlığını bildirən səfir əlaqələrimizin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini dedi. Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, humanitar, elm və təhsil sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Birinci vitse-prezident Mehriban Əliyeva Talassemiya Mərkəzində olub

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Talassemiya Mərkəzində olublar. AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezidentə və ailə üzvlərinə Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.***

Mehriban Əliyeva tibb müəssisəsindəki transplantologiya şöbəsində, yeni açılan reanimasiya şöbəsində və böyüklər üçün stasionar şöbədə olub, burada müalicə alan uşaqlarla, tibb işçiləri ilə söhbət edib, müalicə prosesinin gedişi ilə maraqlanıb. Birinci vitse-prezidentə məlumat verildi ki, Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynamaqla yanaşı, həm də xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstəkdir.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun Mərkəzin fəaliyyətinə və ümumiyyətlə, səhiyyəyə daim önəm verdiyini bildirib.

Qeyd edək ki, tibb müəssisəsində görülən işlər, aparılan islahatlar, burada müalicə alan xəstələrin səhhəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzində saxlanılır. Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilən Talassemiya Mərkəzində xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün görülən tədbirlər talassemiya xəstəliyinin profilaktikasında əhəmiyyətli rol oynayır.



Xatırladaq ki, 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzi Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsinə və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xidmət edir.













# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Dövlət Pantomim Teatrında olub

***Oktyabrın 31-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri Azərbaycan Dövlət Pantomim Teatrının binasında mövcud vəziyyətlə tanış olublar. AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli Birinci vitse-prezident Mehriban Əliyevaya və ailə üzvlərinə teatr haqqında məlumat verdi.***

Bildirildi ki, respublikamızın tanınmış teatr kollektivlərindən olan Azərbaycan Dövlət Pantomim Teatrı 1994-cü ildə teatr-studiya kimi yaradılıb. Studiya altı il müddətində Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərib. 2000-ci il martın 6-da kollektivə dövlət statusu verilib. 2005-ci ildən isə Azərbaycan Dövlət Pantomim Teatrı keçmiş "Şəfəq" kinoteatrının binasında yerləşdirilib.

Otuz ildən artıq dövrdə Pantomim Teatrında bir çox müəlliflərin əsərləri səhnələşdirilib. Teatrın bu növünün əsas üstünlüklərindən biri onun üçün dil baryerinin olmamasıdır. Ötən müddət ərzində kollektiv Almaniya, Avstriya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Qazaxıstan, Mərakeş, Rusiya və digər ölkələrdə Azərbaycan mədəniyyətini uğurla təmsil edib.









Bu gün Pantomim Teatrı ən çox ziyarət olunan və böyük tamaşaçı məhəbbəti qazanan mədəniyyət ocaqlarımızdan biridir.

Qeyd edildi ki, Azərbaycan Dövlət Pantomim Teatrının hazırda yerləşdiyi bina 1900-cü ildə inşa olunub və yerli əhəmiyyətli memarlıq abidələri siyahısındadır.

Mövcud vəziyyətlə tanışlıq zamanı binada görülməli olan zəruri təmir işləri barədə də məlumat verildi.

# Milan Sedlaçek: COP29 iqlim dəyişikliyi ilə bağlı qlobal əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcək

Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 31-də Çex Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçeklə görüşüb. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin siyasi, iqtisadi və humanitar aspektləri müzakirə edilib, ikitərəfli münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, o cümlədən parlament sədrləri və dostluq qrupları səviyyəsində təmasların əhəmiyyəti vurğulanıb. Sahibə Qafarova parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin inkişafında mühüm rolunu qeyd edərək, Altıncı çağırış Milli Məclis dövründə Çex parlamenti ilə əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirildiyini vurğulayıb. O, VII çağırış dövründə də bu əməkdaşlığın davam etdiriləcəyinə inamını ifadə edib, parlamentlərin dostluq qrupları, həmçinin profil komitələri arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətinin və qarşılıqlı dəstəyinin mühüm olduğunu deyən Milli Məclisin sədri parlamentlərarası əlaqələrdə obyektiv məlumatların paylaşılması baxımından qarşılıqlı məlumatlandırmanın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.



COP29-a hazırlıq prosesindən söz açan Sahibə Qafarova deyib ki, bu konfransın qlobal bir problemə və həmrəylik tələb edən bir məsələyə həsr olunduğunu nəzərə alaraq, tədbirin siyasiləşdirilməsi cəhdləri yolverilməzdir. Bildirilib ki, Milli Məclis Parlamentlərarası İttifaqla birlikdə COP-29 çərçivəsində tədbirə qatılacaq parlamentarilərə iqlim dəyişikliyi ilə mübarizədə geniş fikir mübadiləsi aparmaq və birgə mövqedən çıxış etmək imkanı yaradacaq Parlament toplantısı keçirməyi planlaşdırır.

Səfir Milan Sedlaçek ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlıqdan məmnun olduğunu, bu əlaqələrin davam etdiriləcəyinə əminliyini bildirib. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Çexiyanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirib, bu tədbirin iqlim dəyişikliyi ilə bağlı qlobal əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# 2003-cü il 31 oktyabr: tarixin 21 ili



***2003-cü il 31 oktyabrda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ilk inaqurasiya mərasimi keçirilmişdir. Tarixin 21 illik zamanı sübut etdi ki, İlham Əliyev ölkə Prezidenti seçilərək Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməsi ilə Ümummilli Liderimizin ölkəyə ikinci dəfə rəhbərliyi dövründə Azərbaycanda yaratdığı və inkişafına, müstəqilliyinin əbədiliyinə nail olduğu yeni Azərbaycanın daha böyük tərəqqisinə nail oldu. Ötən 21 ilin əvvəli ilə sonunu bir-birindən çox fərqli mənzərələr birləşdirir. Həm ictimai-siyasi, həm sosial-iqtisadi, xüsusilə də Qarabağ və Şərqi Zəngəzurla bağlı mənzərələrin hər birində əldə olunan yenilik, tərəqqi qürur hissi doğurur.***

Ölkəmizdə ötən 21 il ərzində hərtərəfli inkişafa nail olunub. Bu inkişaf və tərəqqi fonunda torpaqlarımızın işğaldan azad edilməsini xüsusi olaraq vurğulamaq lazımdır. Dövlət başçısının 14 fevral 2024-cü ildə keçirilən andiçmə mərasimində dediyi kimi:"Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".

Cənab Prezidentin dəyərli fikirlərində bildirdiyi kimi, torpaqlarımızın da işğaldan azad olunmasından sonra, bəli, qarşıda Azərbaycanı yeni bir dövr gözləyir. Yeni dövr isə qarşımıza yeni vəzifələr qoyur. Buna görə də hər birimiz öz sahəmizdə yeni dövrün tələblərinə cavab verəcək dərəcədə çalışmalı, dövlət başçısı ətrafında daha sıx birləşməklə, Azərbaycanın gələcəyini hər zaman xalqının və millətinin mənafeyini düşünən Prezidentimizin görmək istədiyi səviyyəyə çatdırmalıyıq.

## Ötən 21 ildə güclü iqtisadiyyat ən önəmli şərt oldu

Güclü iqtisadiyyat olmadan heç bir inkişafdan söhbət gedə bilməz. 90-cı illərdə torpaqlarımızın işğalı ölkəmizin böhran vəziyyətinə düşmüş iqtisadiyyatı səbəbindən reallaşa bildi. Çünki ordu infrastrukturunun yox dərəcədə olması işğalın əsasını təşkil edirdi. Ölkə vətəndaşlarının həmin illərdə yaşayış səviyyəsinin aşağı olması səhiyyə, təhsil və digər sahələrdə bir çox problemlərlə üzləşməsi ilə nəticələnirdi. Ötən 21 ili müstəqillik illərinin qızıl dövrü hesab etmək olar. "Güclü iqtisadiyyat ən önəmli şərtdir",- deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində keçirilmiş tədbirlər nəticəsində Azərbaycan iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub.

Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə artıb. 2003-2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dol-lardan 78,7 milyard dollara yüksəlib. 2003-2023-cü illərdə dövlət büdcəsi-nin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyuta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata yüksəlib.

Dövlət başçısı iqtisadiyyatın şaxələndirilməsini milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 21 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3 min 500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən, ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil edib.

Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı inkişaf təmin olunub. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir.

Ötən 21 ildə Azərbaycanda qeyri-neft sektorunun davamlı inkişafını reallaşdırmaq, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəs-sisələrini qurmaq, bu sahədə sahibkarlığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə yüzlərlə istehsal və emal müəssisələri, iri sənaye mərkəzləri, parkları və məhəllələri yaradılıb. Bu dövr ərzində respublika üzrə 51 aqropark yaradılıb.

"Əsrin müqaviləsi" ilə Xəzər hövzəsini xarici investorlar üçün açan, Xəzərlə Qara dəniz və Aralıq dənizini birləşdirəcək enerji infrastrukturunun əsasını qoyan Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yaranan imkanlar qarşıya qoyulan genişmiqyaslı vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün mühüm zəmin yaratdı. 2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhəng Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin ilin dekabrın 15-də "Şahdəniz" yatağında ilk quyu istismara verildi. Sonrakı illərdə "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda Cənub Qaz Dəhlizi layihəsinin təməli qoyuldu.

Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları reallaşdırıldı. Bütün bunlar isə dünyanın enerji xəritəsində yeni mənzərə formalaşdırdı.

Beləliklə, iqtisadiyyatımız inkişaf etdikcə, bu, öz təsirini bütün sahələrdə göstərməyə başladı. Əsasən də ordu quruculuğu sahəsində. Çünki torpaqlarımız işğal altında idi və onların xilası üçün iki yol var idi. Ya torpaqlarımız sülh yolu ilə geri qaytarılmalı idi, ya da hərbi yolla. Danışıqlar vasitəsilə torpaqlarımızın sülh şəraitində xilası üçün illərlə dünya miqyasında işlər aparılsa da, lakin beynəlxalq aləm susdu. Həm də illərlə susdu. Belə olan halda isə dövlətimizin başçısı ikinci yolu-hərb yolunu seçməli oldu. Deməli, biz ikinci yola hazır idik.

## Biz elə Ordu yaratmışıq ki...

Ölkə rəhbəri ötən 21 il ərzində Azərbaycanın müdafiəsini gücləndirməyi əsas diqqət mərkəzində saxlayıb. Dövlət büdcəsində müdafiə xərclərinin əhəmiyyətli çəkisinə xüsusi önəm verib. Bu, ölkəmizin müharibə şəraitində yaşaması, ərazimizin 20 faizdən çox hissəsinin işğal altında olması ilə bağlı olub. Bütün bu qayğı və diqqət nəticəsində müstəqil Azərbaycanın NATO standartlarına cavab verən, şəxsi heyətinin döyüş hazırlığı yüksək olan peşəkar və modern ordusu yaradılıb. Bu ordunun dinamik inkişaf meyllərini isə məhz ölkənin uğurlu daxili və xarici siyasəti, eyni zamanda, dünyada artan nüfuzu şərtlən-dirib.

Məhz 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, düşünülmüş siyasəti, qətiyyəti və prinsipiallığı nəticəsində bütün istiqamətlərdə əldə olunan böyük uğurların və qüdrətli silahlı qüvvələrin formalaşmasının məntiqi nəticəsi idi.

2023-cü il sentyabrın 20-də 24 saatdan da az vaxt çəkən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisindəki bütün tör-töküntülərini, hərbi infrastrukturunu sıradan çıxardı, hərbi xuntanı ağ bayraq qaldırmağa məcbur etdi.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi.

Dövlətimizin başçısı milli ordumuzun bundan sonra da güclənməsini, daha da müasirləşməsini arzulayır. Ötən andiçmə mərasimindəki çıxışında ordu məsələsinə nəzər salan Prezident İlham Əliyev deyirdi: Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

## Yeni dövr-yeni çağırışlar

Beləliklə, 21 ildə ölkədə yüksək göstəricilərin şahidi olduq. Ən əsası isə Qarabağın və Şərqi Zəngəzur ərazilərinin düşməndən azad olunması İlham Əliyevin Prezident kimi fəaliyyəti dövründə mümkün oldu. Xalq 30 illik mübarizənin sonunda öz tarixi torpaqlarını yenidən qazandı. Soydaşlarımız 30 illik ayrılıqdan sonra doğma yurd-yuvasına qovuşa bildi.

Ölkə iqtisadi cəhətdən yüksəldi, bunun nəticəsində milli ordu təkmilləşdirildi, ölkədə vətəndaşa verilən dəyər amilindən bəhrələnərək əsl vətəndaş cəmiyyəti formalaşdı. Bu cəmiyyət isə vətənpərvər gənclərin formalaşmasına səbəb oldu. Dövlət-xalq birliyi yarandı və bu birlik torpaqlarımızın azad olunması, düşmənin birdəfəlik qovulması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

Bu il fevral ayının 7-də Azərbaycan xalqı yenidən öz Prezidentini seçdi. Həm də bütöv Azərbaycanda ilk dəfə olaraq Prezident seçkiləri keçirildi. Ölkənin inkişafı ilə yanaşı, həm də xalqımızın şərəf və namus məsələsini həll edən cənab İlham Əliyev çoxsaylı seçici rəyi ilə yenidən ölkə rəhbəri seçildi.

Beləliklə də yeni bir dövrün başlanğıcı qoyuldu. İnkişaf etmiş, torpaqları azad olunmuş ölkə qarşısında yeni bir dövr. Bu dövr dövlət başçısının andiçmə mərasimində də dediyi kimi başqa bir dövrdür: Bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir... Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır.

2003-2024-ci illəri əhatə edən 21 ilin ölkənin müstəqilliyinə, sosial-iqtisadi inkişafına, xalqın firavanlığına, vətəndaş rifahına, insan amilinə verdiyi töhfələrdən günlərlə, saatlarla danışmaq olar. Ümumi nəticə olaraq söyləmək olar ki, nə yaxşı ki, 2003-cü ildə dövlətimizin başçısı ilə birlikdə bir yola çıxmışıq. Bu yol bizim üçün uğurlu oldu: tarixin 270 illik axınını dəyişən, müstəqilliyimizi, ərazi bütövlüyümüzü möhkəmləndirən, ölkəmizi dünyaya tanıdan yol.

***Mətanət Məmmədova***

# "ABŞ işğalçı dövlətin yanında olduğunu sübut edib"

**"İlk olaraq onu deyim ki, ABŞ və Azərbaycan arasında yaranmış mövcud vəziyyətin səbəbkarı Azərbaycan deyil". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. O bildirib ki, Azərbaycan olaraq biz hər zaman Birləşmiş Ştatlarla qarşılıqlı faydalı ikitərəfli əməkdaşlıqda maraqlı olmuşuq: " Ölkə olaraq biz daha çox ABŞ-ı maraqlandıran beynəlxalq təhlükəsizlik məsələləri üzrə əməkdaşlıqda fəal iştirak etmiş, ABŞ-ın xahişi ilə NATO-nun əməliyyatlarına töhfə vermiş və həmin əməliyyatlarda ləyaqətlə iştirak etmişik. Bir sözlə, Azərbaycan tərəfi hər zaman ABŞ ilə iki ölkə xalqlarının maraqlarına və BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq mehriban münasibətlər qurmaq və inkişaf etdirmək üçün məsuliyyətli və konstruktiv şəkildə davranmışdır. Amma təəssüf ki, Ağ ev admistrasiyası tərəfindən eyni maraq heç bir zaman müşahidə olunmayıb. Odur ki, ABŞ-ın Azərbaycana yönəlik təzyiqləri əslinə baxanda yeni bir şey deyil.**





Hələ 90-cı illərdə müstəqilliyimizi yeni əldə etdiyimiz dönəmdə, ərazilərimiz işğal altına düşəndə, insanımıza qarşı ermənilər tərəfindən soyqırımlar törədiləndə ABŞ 907-ci düzəlişi qəbul etməklə bizə qarşı olan mövqeyini ortaya qoyub. Sonrakı dövrdə də ATƏT Minsk Qrupunun həmsədri kimi Ermənistana qarşı addımlar atmamaqla, ermənilərdən işğal etdikləri ərazilərdən çıxmasının vacibliyi ilə bağlı BMT Qətnamələrinin icrasını tələb etməməklə işğalçı dövlətin yanında olduğunu sübut edib. Başqa sözlə desək vaxtilə işğal edilmiş ərazilərdə Azərbaycan xalqının mədəni irsinin, məscidlərin, tarixi abidələrin dağıdılması, təhqir edilməsi, bütöv şəhər və kəndlərin yer üzündən silinməsi məhz elə ABŞ-ın gözü qarşısında baş verib. İndi isə, yəni Vətən müharibəsində qələbədən sonra regionda yaranmış yeni reallıqlar fonunda region ölkələrini özündən asılı vəziyyətə salmaq yolu tutmuş ABŞ bölgənin əsas gücü olaraq bizi özü üçün hədəf seçib.

Məqsəd bəllidir. Ölkəmizin müstəqil siyasətini sarsıtmaq, bizləri müti və sözəbaxan ölkəyə çevirmək əsas məqsədidir. Bunun fonunda da özlərinin Cənubi Qafqaz maraqlarını təmin etməkdir. ABŞ Dövlət departamenti yanlış olaraq düşünür ki, müxtəlif bəhanələrlə təzyiqlər yolu ilə bizi Ermənistan kimi özlərindən asılı ölkəyə çevirə biləcəklər.

Bir müddət əvvəl ABŞ Senatının 10, Konqresinin 48 üzvünün dövlət katibi Entoni Blinkenə ünvanladığı müraciət də bunun bariz sübutudur. Bu müraciətin dövlət departamenti rəsmiləri tərəfindən yazıldığı və sonradan Konqres tərəfindən ünvanlanmış müraciət kimi təqdim edilməsi artıq heç kimdə şübhə doğurmur. Görünən odur ki, ABŞ-da bir qism Qərb dövlətləri kimi onların iradəsi olmadan Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə barışa bilmir.

İnsan hüquqları isə sadəcə bir bəhanədir. Əgər belə olmasaydı, onlar ilk növbədə Ermənistanda insan hüquqlarına vəziyyətinə dair çağırışlar edərdilər. Belə ki, Ermənistanın özündə ən müstəqil ekspertlərin və qeyri-hökumət təşkilatlarının hazırladığı hesabatlara görə Paşinyan hakimiyyəti dönəmində Ermənistanda siyasi fəaliyyətinə və baxışlarına görə saxlanılan, həbs olunan, haqqında cinayət işi qaldırılmış şəxslərin sayı indiyə qədərki hakimiyyətlərin dönəmindən qat-qat çoxdur. Amma biz ABŞ tərəfindən niyəsə bu məsələlərlə bağlı hər hansı çağırışa şahidlik etmirik. Demək ki, məqsəd, həqiqətən də, insan hüquqlarının qorunması yox, bundan istifadə edərək ölkəmizə təzyiq etməkdən ibarətdir.

Bu gün "Dağlıq Qarabağın siyasi liderləri" kimi təqdim etdikləri müharibə canilərini sərbəst buraxmaqla bağlı çağırışlar edən ABŞ Konqresmenləri ilk növbədə Ermənistandan bütün azərbaycanlıların deportasiya edilməsinə, işğal dövründə taleyi bilinməyən 4 min azərbaycanlı itkinlə bağlı Ermənistanın heç bir məlumat verməməsinə və yaxud da öz ölkələrinin ən mühüm insan hüquqları konvensiyalarına qoşulmamasına, BMT-nin İşgəncələrə qarşı xüsusi məruzəçisini uzun illər Quantanamoya buraxmamasına münasibət bildirməlidirlər. Amma yenə də təkrar edirəm ki, bunlar baş vermir. İndiyə qədər ayrı-ayrı beynəlxalq qurumlarda Ermənistanla bağlı qəbul olumuş qərar və qətnamələrin rəsmi İrəvan tərəfindən icra olunmamasına susduqları kimi yenə də susurlar. Halbuki, bu gün bütün imkanları ilə Ermənistanı müdafiə edən AŞPA kimi qurumların belə zamanında Ermənistanla bağlı kifayət qədər Qətnamələri olub. Məsələn, AŞPA-nın 2005-ci il yanvarın 25-də qəbul etdiyi 1416 nömrəli "ATƏT-in Minsk qrupu tərəfindən tənzimlənən Dağlıq Qarabağ münaqişəsi haqqında" qətnaməsində Azərbaycan ərazilərinin işğal faktı təsdiqlənib, bu ərazilərdəki etnik təmizləmələrdən narahatlıq ifadə edilib, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə riayət edilməsinə və qoşunların işğal edilmiş ərazilərdən geri çəkilməsinə çağırış edilib. Təşkilat, həmçinin məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüququnu təsdiqləyib, üzv dövlətin ərazisinin digər üzv dövlət tərəfindən işğal edilməsinin yolverilməzliyini vurğulayıb. Amma nədənsə bizlər bu Qətnamənin icrasından boyun Qaçıran Ermənistanla bağlı hər hansı cəza tədbirinə şahidlik etməmişik".

Onun sözlərinə görə, başqa bir Qətnaməyə, yenə də AŞPA tərəfindən 6 yanvar 2016-cı ildə qəbul edilmiş 2085 saylı qətnamyə baxaq: "Bu Qətnamədə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisində yerləşən Sərsəng su anbarının cari vəziyyətinin yeni humanitar böhran yarada bilməsi ehtimalı qeyd olunmuş və Ermənistan hakimiyyətindən su ehtiyatlarından "siyasi təsir aləti və ya təzyiq vasitəsi kimi istifadəni dayandırması" tələb edilmişdir. Bununla yanaşı, sənəddə sözügedən məsələ ilə bağlı hesabatın hazırlanması zamanı Ermənistan parlamentinin nümayəndə heyətinin və digər səlahiyyətli şəxslərin əməkdaşlıq etməməsi Assambleya tərəfindən qətiyyətlə pislənilmişdir. Həmin Qətnamə 9 bənddən ibarət idi. Qətnamənin III-IV bəndlərində təəssüflə qeyd olunurdu ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı azərbaycanlılar üçün "qəsdən süni ekoloji böhran vəziyyəti" yaratdığından bu cür fəaliyyət "ekoloji təcavüz" hesab olunmaqla, bir üzv dövlətin digərinə qarşı "düşmənçilik hərəkəti kimi qiymətləndirilməlidir." Mövcud vəziyyətin təcili xarakterini nəzərə alan AŞPA növbəti müddəalarda iki mühüm tələb irəli sürmüşdü: Ermənistan Silahlı Qüvvələrinin regiondan dərhal çıxarılması və Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərindən yalnız birinin xeyrinə olacaq vasitə kimi istifadəni dayandırması. Amma bizlər bu Qətnamələrdən sonra da Ermənistana gözün üstündə qaşın var deyəni görmədik.

Bütün bunlar bir daha ABŞ başda olmaqla ayrı-ayrı dövlət və beynəlxalq institutların öz fəaliyyətində və qərarlarında səmimi olmadığını, proseslərə ikili standartlarla yanaşdığını göstərir. Odur ki, Azərbaycan Milli Məclisinin bir qrup üzvünün Xarici İşlər Naziri Ceyhun Bayramova ünvanladığı müraciət tamamilə əsaslıdır və bu istiqamətdə konkret addımların atılmasına ehtiyac var".

*Söylü Ağazadə*



**Elçin Bayramlı**

# Elmimiz xəstədirsə,...

***Ölkənin, xalqın ən böyük sərvəti Elmlər Akademiyasıdır. Bəli, bu sahədə problemlər var, çatızmazlıqlar var. Lakin bunun yolu məhv etmək, dağıtmaq, uçurtmaq deyil, düzəltməkdir. Bu sahədə ciddi işlər görülməlidir, böyük dəstək verilməlidir, elmi laboratoriyalar, tədqiqat mərkəzləri yaradılmalıdır, lazimi texnologiya ilə təchiz edilməlidir. Alimlərin maaşı artırılmalıdır, onlara öz ixtiralarını sənayedə və sair sahələrdə tətbiq etmələri üçün şərait yaradılmalıdır. İxtiraçılara, gənc alimlərə şərait yaradılmalıdır. Söhbət əsasən texniki elmlərdən gedir, humanitar elmlər artıq bitib.***

Dünya ölkələrinə baxmaq kifayətdir ki görəsən-inkişaf etmiş ölkələr yalnız elm və texnologiya sayəsində bu mərtəbəyə yüksəliblər, ABŞ, Rusiya, Çin, Almaniya, Fransa, Britaniya, Yaponiya və s. Xüsusən də texniki elmlərə yiyələnən ölkələr yüksək inkişaf ediblər. Çox təəssüf ki, bizdə bu sahələrə maraq çox azdır. Çünki nə istehsalatda belə mütəxəssislərə ehtuiyac var, nə də elmi sahələrdə perspektiv görürlər.

Bizdə elmi-tədqiqat institutlarının çoxunun yalnız adı qalıb. Sovet dövründə çox nəhəng elmi infrastruktir yaradılmışdı, onlarla elmi-tədqiqat institutu, elmi laboratoriyalar var idi, elmi ixtiraları və yeniliklərin istehsalatda tətbniqinə şərait yaradılırdı, ixtiraçılar klubları var idi. Çox təəssüf ki, Sovetdən sonar bunların çoxu dağılıb getdi, qalanlar da yalnız formal olaraq mövcuddur.

Son 30 ildə ölkədən 30 mindən artıq alim köçüb gedib. Elmi-tədqiqat institutlarının maddi-texniki bazası müasir tələblərə cavab vermir. Bu vəziyyətdə nə gözləmək olar? Elmə ayrılan vəsait çox azdır və xeyli artırılmalıdır. Şoulara, seriallara, futbola... ayrılan pulun 10 faizini elmə ayırsaydıq, indi də bu elmdən nəsə tələb edə bilərdik.

Bizdən hər sahədə dəfələrlə zəif Ermənistanda elmi nəşrlərin və elmi məqalələrin sayına görə bizdən 2 dəfə yüksək göstərici var. Belə çıxır ki, bizim xalq olaraq da elmə marağımız yoxdur, ya da burada perspektiv görmürük. Ali məktəblərin bitirənlərin neçəsi elmi yaradıcılıq sahəsinə gedir? Çox azı. Hamı çalışır ki, hazırda hansı sahədə qazanc çoxdursa ora yönəlsin.

Elmlər Akademiyasında başqa problemlər var. Burada gənc alimlərdən namizədlik və doktorluq dissertasiyası müdafiə etmək üçün yüksək səviyyədə ingilis dili tələbi absurddur. Ay qardaş, bura İngiltərədir? Yoxsa bu alim ingilis dili müəllimi olacaq? Alim 6 beynəlxalq dildən hər hansı birini bilsə kifayətdirməsələn, ingilis, rus, ispan, fransız, çin, ərəb dili də ola bilər. Bu dillərin hər birində ağılagəlməz həcmdə elmi baza var. Nə deyib ancaq ingilis dili tələb edirsiniz? Biz İngiltərənin müstəmləkəsiyik?

Xarici elmi jurnallarda 20 məqalə dərc etdirmək tələbi absurddur. Məlum olduğu kimi əksər elmi jurnallar biznes proyektidir və məqalə dərcinə görə böyük məbləğdə pul tələb edirlər. Bu "yetim" alim hardan almalıdır o pulları?

Dissertasiya müdafiə etmə prosesi illərlə uzadılır. Min dənə şərt qoyulur, bəziləri ümumiyyətlə absurddur. Belə çıxır ki, gənc alim milyoner olmalıdır ki, bütün bu işlərin və xərclərin öhdəsindən gələ bilsin. Və o müdafiə edib alim olanda artıq qocalmış olacaq, nə enerjisi, nə vaxtı, nə sağlamlığı qalacaq ki, elmə töhfə versin.

Bu qədər, vaxt, əziyyət, xərc çəkən alim nə qazanacaq? Gəlin görək, özəl şirkətlər alimləri, mütəxəssisləri işə götürürlərmi? Xeyr. Ona görə çoxu ölkədən gedir. Axı belə şəraitdə elmdən, alimdən nəsə gözləmək absurddur. Elmi İnstitutda işləyib 400-500 manat maaş alan alimdən, elmi işçidən nə gözləmək olar? O məcburdur ki, xaltura etsin, kənardan beş-on manat qazansın ki, ailəsi acından ölməsin. Bu səbəbdən bir çox gənc alimlər xarici ölkələrə gedir və öz potensiallarını o ölkələrin xeyri üçün sərf edirlər. Nəticədə onlar qazanır, biz isə itiririk.

Demək, problem elmdə, alimlərdə deyil, bizdədir. Ona görə də, problemin nəticələri ilə uğraşmaqdansa, səbəbini tapıb həll etmək lazımdır.

# Ağıllı və yaşıl şəhərlərə doğru !

***Hər oktyabrın 31-də Dünya Şəhərlər Günü qeyd olunur. Statistik məlumatlara istinadən deyə bilərik ki, müasir dünya əhalisinin yarısından çoxu şəhərlərdə yaşayır. BMT hər il oktyabrın 31-də qeyd olunan Ümumdünya Şəhərlər Günündə bu il - 2024-cü ildə "Gənclər iqlim dəyişikliyinin katalizatorları" mövzusu altında keçirilən tədbirlərin builki mövzusu "Şəhər davamlılığı üçün yerli fəaliyyət"dir. Təşkilat bu əlamətdar günlə bağlı yeni hesabatını dərc edib.***

Hesabatda iqlim dəyişikliyi kontekstində görünməmiş problemlərlə üzləşən şəhərlərdə 2050-ci ilə qədər dünya əhalisinin 70 faizinin yaşayacağını proqnozlaşdırılır. 2030-cu ilə qədər insanların təxminən 60 faizi şəhərlərdə yaşayacaq, eyni zamanda, şəhər sakinlərinin 60 faizə qədərinin yaş həddi 18-dən aşağı olacaq. Dayanıqlı İnkişaf Məqsədləri (SDG) istiqamətində irəliləyişlərə baxmayaraq, şəhərlər, xüsusən Qlobal Cənubda yerləşən iri yaşayış məntəqələri yoxsulluq, bərabərsizlik və ətraf mühitin pisləşməsi fonunda təcili tədbirlər görülməsini tələb edir. 2024-cü il Ümumdünya Şəhərlər Günündə keçirilən tədbirin məqsədi şəhərlərdə iqlim problemlərinin həllində yerli hökumətlərin və gənclərin mühüm rolunu nümayiş etdirməkdir. Tədbirdə gənclərin təklif etdiyi innovativ ideyaları işıqlandırmaqla yanaşı, onların konkret fəaliyyətə çevrilməsi yollarına diqqət yetirilir.

## DAVAMLI ŞƏHƏRLƏRƏ DOĞRU KEÇİD

Beynəlxalq ictimaiyyətin qeyd etdiyi Ümumdünya Şəhərlər Günündə davamlı şəhər icmalarının, ağıllı və yaşıl şəhərlərin qurulması, ekoloji problemlərə və urbanizasiyaya qarşı innovativ həllər vasitəsilə mübarizə apararaq layiqli həyat şəraitinin təmin edilməsində gənclərin rolunu vurğulamaq üçün bir fürsətdir.

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) Ümumdünya Şəhərlər Günü fürsətdən istifadə edərək beynəlxalq ictimaiyyəti, o cümlədən üzv ölkələri, beynəlxalq və regional təşkilatları, qurumları və özəl sektoru gənclərin ətraf mühitin mühafizəsinə töhfələrini təşviq etməyə çağırır. ICESCO Ümumdünya Şəhərlər Günü münasibətilə beynəlxalq ictimaiyyətə və üzv ölkələrə müraciətində bildirib ki, iqlim dəyişikliyinə uyğunlaşmaq üçün onların rolunun artırılmasına sərmayə qoymaq, gənclərin və qadınların təşəbbüslərini inkişaf etdirmək, ağıllı, dayanıqlı və davamlı şəhərlərə doğru keçidi təşviq edən layihələri dəstəkləmək davamlı inkişafın sütunlarıdır. Beynəlxalq ictimaiyyətin və üzv dövlətlərin səylərini dəstəkləyən ICESCO, eyni zamanda, özünün yeni baxışı və strateji istiqamətləri çərçivəsində təşkilatın Elm və ətraf mühit sektoru vasitəsilə gənclərə innovasiyalar üçün müasir texnologiyalardan istifadə etməyi öyrətmək məqsədi daşıyan bir sıra təşəbbüslər və proqramlar həyata keçirib. Ağıllı, davamlı və dayanıqlı şəhərlərə əlavə olaraq, həmçinin iqlim fəaliyyəti sahəsində innovativ layihələrin hazırlanması və həyata keçirilməsində gənclərin bacarıqlarını artırmaq məqsədi daşıyan Gənc İqlim Liderliyi Təlim Düşərgəsi kimi iqlim dəyişikliyinin nəticələrini azalda biləcək layihə də bu qəbildəndir. Texnologiya və innovasiya üzrə kiçik biznesin inkişafı sahəsində keçirilən gənclərin təlim proqramına əlavə olaraq, üzv dövlətlərdə bu konsepsiyaları və təbii ehtiyatlardan səmərəli istifadəni təşviq etməyə çalışan İslam Dünyası Proqramı uğurla həyata keçirilir. Müraciətin sonunda bildirilir: "Gənclərin daha yaxşı gələcək qurulmasına verdiyi töhfələrdən xəbərdar olan ICESCO, eyni zamanda, iqlim dəyişikliyi ilə bağlı problemlərlə mübarizə apara biləcək yeni nəsillər yetişdirmək üçün onların yaradıcı istedadını, həvəsini və liderlik bacarıqlarını inkişaf etdirməyin vacibliyini vurğulayır".

## QLOBAL SAĞLAMLIQ ÜÇÜN ƏN BÖYÜK TƏHLÜKƏ



Hazırda iqlim dəyişmələri dünyanı narahat edən qlobal problemlərdən biridir. Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. İqlim dəyişmələri fonunda Azərbaycan daşqınlar, qar uçqunları, tufanlar, qasırğalar, dalğalanmalar, güclü küləklər, istiliklər, quraqlıqlar, buzlaqların əriməsi, şoranlaşma, torpaqların deqradasiyası, səhralaşma, yağıntıların və su ehtiyatlarının azalması və s. bu kimi ekstremal iqlim hadisələrinin təsirlərinə məruz qalır. İqlim dəyişmələri həm regional, həm də qlobal səviyyədə insanların qida təhlükəsizliyini və suya çıxışını məhdudlaşdırır, aclıq, yoxsulluq və digər ağır sosial-iqtisadi nəticələrə, miqrasiyanın güclənməsinə səbəb olur, yoluxucu və xroniki xəstəlikləri artırır. Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı isə 21-ci əsrdə qlobal sağlamlıq üçün ən böyük təhlükə kimi iqlim dəyişmələrini göstərmişdir. Mütəxəssislərin fikrincə, gələcəkdə qlobal istiləşməni minimuma endirmək səyləri uğurlu olsa belə, dəniz səviyyəsinin artması, okean istiliyinin və turşululuğunun yüksəlməsi kimi neqativ təsirlərin müəyyən hissəsi əsrlər boyu davam edəcəkdir.

Azərbaycan Respublikası Milli Məclisi BMT - nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını 1995-ci ildə ratifikasiya etmişdir. Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Əlavə 1 qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənməsi, milli məlumatların hazırlanması kimi öhdəliklər götürmüş və bu öhdəliklər sistemli şəkildə yerinə yetirilmişdir. Sənədlərə əsasən, Azərbaycan Respublikası Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiq edilmişdir. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş. Doha əlavəsi 14 aprel 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmiş və ölkə prezidenti tərəfindən imzalanmışdır.

2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin tarixi Sammitində isə dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik"də qarşıdakı on beş il ərzində ölkələr "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq, sosial-iqtisadi məsələlər ilə yanaşı, məhz iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi və dünya ictimaiyyətinin səfərbər olmasının önəmi vurğulanmışdır. Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini 22 aprel 2016-cı ildə imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya etmişdir. Məhz, Paris Sazişinin 4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası 2015-ci ilin oktyabrında BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə özünün "Milli səviyyədə Müəyyən edilmiş Töhfələr" (NDC) sənədini təqdim etmiş və qlobal miqyasda iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq, 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə qədər istixana effekti yaradan qaz emissiyalarının (İEYQ) 35% həcmində azaldılmasını hədəfləmişdir. Respublikamız 2021-ci ildə Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı Sessiyası (COP26) zamanı rəsmi olaraq qlobal iqlim dəyişmələrinə təsirini azaltmaq məqsədilə təşəbbüslərə töhfə olaraq isə 2050-ci ilə qədər isə 40% azaldılmanı hədəf kimi götürmüşdür.

## ÖLKƏNİN İQLİM DƏYİŞMƏLƏRİNİN TƏSİRLƏRİNİN AZALDILMASI: LAYİHƏLƏR VƏ İSLAHATLAR

Bütün bu və ya digər amillərlə yanaşı, ölkədə həyata keçirilən uğurlu ekoloji siyasət ətraf mühitə dost texnologiyalardan istifadə, tükənməyən enerji mənbələrindən istifadənin genişləndirilməsi, məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi, müasir avtomobil yollarının çəkilməsi, müasir aqroparkların yaradılması, yeni meşə massivlərinin salınması və s. bu sahədə mühüm addımlardır.

Bununla yanaşı, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "Prioritet olan İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" adlı 4-cü Prioritetin və "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlı 5-ci Prioritetlərin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və SMART infrastrukturun formalaşması istiqamətində mühüm işlər həyata keçirilir. Belə ki, 30 illik işğaldan azad edilmiş ərazilərimizdə "yaşıl enerji" zonasının yaradılması, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri işlənib hazırlanmış və artıq icra olunmaqdadır.

Hazırda iqlim dəyişmələri ilə mübarizə istiqamətində həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Bundan əlavə, İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq qərarı əsasında "Az karbonlu inkişaf üzrə Milli Strategiya", "Milli Adaptasiya Planı" və digər önəmli sənədlərin hazırlanmasına başlanılmışdır.

Ölkənin iqlim dəyişmələrinin təsirlərinin azaldılması və bu təsirlərə uyğunlaşma strategiyaları uzunmüddətli Dövlət Proqramlarında öz əksini tapıb.

Azərbaycanın yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək bir ölkə kimi seçilməsi dövlətimizin daha bir uğuru, eləcə də qlobal miqyasda güclü diplomatiyasının göstəricisidir. Əlbəttə ki, Azərbaycanın beynəlxalq miqyaslı - BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda uğurla sədrlik etməsi ona göstərilən etimadın, inamın təzahürüdür. 2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP29-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib. "Bu, Azərbaycana olan beynəlxalq ictimaiyyətin böyük hörmət və dəstəyinin təzaşürüdür". Bu fikri Prezident İlham Əliyev çıxışlarının birində bildirib. Cənab Prezident qeyd edib ki, COP29-a biz öz sədrliyimizə nəinki özümüzü nümayiş etdirmək, həm də ölkəni təqdim etmək fürsəti kimi baxırıq. Azərbaycan platformasından COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə baxılacaq.

COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı hesab oluna bilər. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgiləyəcəkdir. Bildiyimiz kimi, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetləri sırasındadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Fransa insanlıq üçün qara ləkədir








Sübuta yetirilən fakt ondan ibarətdir ki, dünyada elə dövlətlər və beynəlxalq təşkilatlar var ki, onlar açıq şəkildə sülhə və təhlükəsizliyə təhdid yaradırlar. Sözdə isə insan hüquq və azadlıqlarına hörmətdən danışır, azad, demokratik cəmiyyətlərin quruculuğundan söhbət açırlar. Reallıqda isə birinci növbədə onlar süni müharibələr, münaqişələr törətməklə on minlərlə insanın ölümünə, yaralanmasına, yüz minlərlə ailənin isə öz doğma yurd-yuvasından didərgin düşməsinə səbəbkar olurlar. Müasir dövrün köklü dəyişiklikləri, yenilikləri olmasına baxmayaraq hələ də müstəmləkə siyasəti aparan və müstəmləkə altında saxlanan ərazilərdə qanlı qırğınlar, vəhşiliklər törədən dövlətlər var. Fransa o dövlətlərdəndir ki, on illərdir ki, müstəmləkə siyasəti aparır və qanlı qırğınlar həyata keçirir. Misal olaraq Fransanın Yeni Kaledoniyada, Əlcəzairdə, Polineziyada, Korsikada, Melaneziyada və digər ərazilərdə törətdiyi soyqırımı aktlarını göstərmək olar. Bu fakt ondan xəbər verir ki, Fransa hələ də orta əsrlərdə törətdiyi vəhşiliklərini yeni formada davam etdirir. Hələ o zaman, yəni 1789-cu il də xalq üsyanı nəticəsində kralın devrilməsi ilə qurulan hakimiyyətin qəbul etdiyi "İnsan haqları haqqında" Bəyannamə indiki qanunlar kimi sadəcə kağız parçasıdır. Baxmayaraq ki, bəzən Makron hakimiyyəti tarixə istinad etməklə Fransanın hələ 1789-cu ildən insan hüquq və azadlıqlarına qəbul etdiyi qanunlara dəyər verdiyini qeyd edir.

Məlumdur ki, o dövrdə Kralın idarə etməsindən narazı qalan fransızlar 1789-cu ilin iyulun 14-də Bastiliya qalasına hücum edərək əvvəlcədən hazırladıqları planlarını reallaşdırdılar. Nəticədə iyulun 17-də həmin dövrün Fransa kralı XVI Lui xalqın qələbəsini tanımağa məcbur oldu. Kral Parisi respublika elan etdi.1789-cu il Fransa inqilabı "İnsan haqları haqqında" Bəyannamə qəbul etmişdi, lakin çox keçmədən Fransanın başlatdığı müharibələr və geniş müstəmləkəçilik fəaliyyəti qəbul edilən bəyannamənin humanist müddəalarını ayaqlar altına atdı. Fransa müstəmləkələrindəki üsyanları amansızlıqla yatırırdı. 1856-1859-cu illərdə Melaneziyadakı, xüsusən Yeni Ka-ledoniyanın mərkəzi Noumeadakı üsyanlar ağır cəza tədbirləri vasitəsilə boğulurdu. Sürgün, ağır vergilər və s. Yaxud 1962-ci ildə Əlcəzair xalqının azadlıq uğrunda mübarizəsi 1 milyonadək qurban və 2 milyon məcburi köçkünlə nəticələnmişdi.

## Fransa müstəmləkə siyasətindən əl çəkmir

Müasir dövrün müəyyən yenilikləri, inkişafı Fransanı orta əsrlərin qəddar işğalçı siyasətindən çəkindirməyib. Hələ də müstəmləkə siyasəti aparır və işğal etdiyi ərazilərdə insan hüquq və azadlıqlarını kobud şəkildə pozur. Yeni Kaledoniya adası uzun illərdir ki, Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkir. 300 min nəfərə yaxın əhalisi olan bu ada 1853-cü ildən Fransanın müstəmləkəsi altındadır. Fransa digər ərazilərdə olduğu kimi, burada da yerli əhalinin müstəqillik çağırışlarına məhəl qoymur, onların haqlarını kobud şəkildə pozur və eyni zamanda, təbii sərvətlərini talan etməyə davam edir. Bu isə haqlı olaraq ada əhalisinin narazılığına səbəb olur. Fransa hökuməti adaya nəzarətin əllərindən çıxmaması üçün buraya qoşun yeridib, fövqəladə vəziyyət tətbiq edib. Əhalinin fransa ordusu ilə sərt və qətiyyətli mübarizəsi nəticəsində yüzlərlə insan yaralanıb, onlarla insan isə yaralanıb. Çoxsaylı insan Fransa ordusu tərəfindən həbs edilərək amansız işgəncələrə məruz qalıblar. Cari ilin iyulun 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda keçirilən birinci Qurultayın açılış mərasimində çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı, Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvləri qanunsuz həbs olunub. Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələrə məruz qalıblar. Onlar arasında azyaşlı uşaqları olan qadınlar da var. Bakı Təşəbbüs Qrupu siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan edir. Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Bakıda keçirilən tədbirdə iştiraklarına görə Azərbaycan hökumətinə və buna şərait yaradan bütün insanlara təşəkkürünü ifadə edib. Deyib ki, Fransanın koloniyaları ilə bağlı bu Qurultayda biz çətin yoldan uzaqlaşmaq üçün həll yolu tapmalıyıq. "Biz platformalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa bilək. Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq", - deyə o əlavə edib. Yeni Kaledoniya Konqresinin üzvü İzabella Kaloi vurğulayıb ki, mayın 13-dən bəri Yeni Kaledoniyada yaşananları hamı bilir. Azərbaycana gəlmək, bu qurultayda iştirakımızın məqsədi Fransa dövlətinin bizə qarşı aktlarının qəbuledilməz olduğunu qətiyyətlə bildirməkdir. Biz bunu sərt şəkildə qınayırıq. Burada əsasən irqçi polislərdən söhbət gedir. Yazılan hesabatlar, insanların bu barədə dedikləri hələ də reallığa çevrilmir. Nəticə olaraq insanlarımıza qarşı düzgün hərəkət edilmir, hazırkı vəziyyətdə regionda qarşıdurmalar, yanğınlar baş verir. İllərdən bəri yaranmış problemlər gündən-günə daha geniş vüsət alır.

## Fransa insan azadlıqlarını kobud şəkildə pozur

Araşdırmalar nəticəsində bəlli olur ki, Fransa amansız işgəncə maşınını daha geniş formada həyata keçirmək üçün Makronun birbaşa nəzarəti ilə maskalı qruplar yaradır. Həmin qrupların əsas vəzifəsi nisbətən fəal, müstəmləkəçiliyə qarşı mübarizə aparan aktivləri təqib etmək, onları həbs edib, zindanlarda çürütməkdir. İpə -sapa yatmayan azadlıq fədailərini yeri gələndə öldürmək belə Makron hakimiyyətini hədəf seçdiyi əsas fəaliyyətlərdəndir. Hesablamaya görə, son iki il ərzində Yeni Kaledoniyada, Polineziyada, Korsikada, Melaneziya, Karib, Antil və digər müstəmləkə ərazilərindən 443 fəal müxtəlif formada Makron hakimiyyətinin nəzarəti ilə yaradılan və fəaliyyət göstərən vəhşi qrup tərəfindən öldürülüblər. Bir qədər əvvəl isə Fransa hökuməti növbəti rüsvayçılığa imza atıb. Belə ki, Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan tanınmış fəal Kemi Seba Parisdə həbs edilib. Məlumata görə, K.Seba restoranda həmkarı ilə nahar edərkən saxlanılıb. O, Afrikanın müstəqilliyi və suverenliyi uğrunda hərəkatın simvolik liderlərindən biri kimi tanınır və neokolonializmə qarşı fəal mübarizə aparır, yəni neokolonializmin əsas tənqidçilərindən biridir. 2024-cü ildə Fransa hakimiyyətini açıq şəkildə tənqid etdiyi və onun dənizaşırı ərazilərinin müstəqilliyi uğrunda hərəkatları dəstəklədiyi üçün vətəndaşlıqdan məhrum edilib. Bəzi hüquq müdafiəçiləri Kemi Sebanın həyatı üçün narahat olduqlarını bəyan ediblər. Hüquq müdafiəçilərinin iddiasına görə, həbs ediləndən bu günə qədər K.Sebanın taleyi ilə bağlı məlumat əldə edə bilmirlər. Bu isə onu deməyə əsas verir ki, artıq Fransa hüquq-mühafizə orqanları K.Sebanı öldürüblər. İnsan Haqları Liqası assosiasiyası da Fransada "hüquq və azadlıqlara qarşı artan hücumlardan" narahatdır. Belə ki, assosiasiyanın Bordo şəhərində təşkil etdiyi 92-ci konqresdə LDH-ın prezidenti Patrik Budənin təqdim etdiyi "mənəvi hesabat"da Fransada insan hüquq və azadlıqlarına qarşı artan hücumlarla bağlı vəziyyətin kritik olduğu bildirilib. Yerli mətbuat tərəfindən yayılan hesabatda qeyri-mütənasib və ayrı-seçkilik yolu və qadağanedici tədbirlərin çoxaldılması ilə nümayiş etmək hüququna mane olmasına dair xəbərdarlıq edir. Hesabatın müəllifi inzibati ləğvetmə tədbirlərindən istifadənin artdığını qeyd edib. 2025-ci ilin martına qədər alqoritmik videomüşahidədən istifadəyə icazə verən 2023-cü ilin yazında qəbul edilmiş Olimpiya Oyunları qanununa istinad edərək, bu müvəqqəti tədbirin daimi xarakter alacağını xatırladıb. LDH prezidenti həmçinin Fransada son dərəcə artmış islamofob hərəkətlərə qarşı mübarizə aparılmasının vacibliyini də xatırladıb.

Makron vaxtilə "İslam dövləti" terror təşkilatına qarşı yaradılmış beynəlxalq koalisiya çərçivəsində HAMAS-a qarşı mübarizəyə başlamağı təklif edib. Hansı formada? Şübhə yoxdur ki, Liviyaya, İraqa və Suriyaya qarşı təşkil olunun kaolisiya forması düşünülür. Belə hal yaranarsa, müharibə ocağının genişlənəcəyi və daha amansız xarakter alacağı şübhəsizdir. Rusiya, Çin və müsəlman ölkələrinin Makronun iddialarına qarşı sərt təpki göstərmələri və belə bir birliyin yaradılması istəyini tənqid etmələri qeyd olunanlara misal ola bilər. Müharibə isə dayanmayacaq. Çünki bundan əvvəl ABŞ prezidenti Bayden də Yaxın Şərqdəki hadisələri şərh edərkən bildirib ki, "hələ müharibəni dayandırmağın vaxtı deyil". ABŞ, Fransa və ümumilikdə Qərbin yanaşması bölgədə sülhü bərpa etmək, hər iki tərəfdən minlərlə insanın ölümünə səbəb olan qanlı döyüşləri dayandırmaq yox, müharibəni daha da alovlandırmağa yönəlib.

## Makron hakimiyyəti terrora da dəstək göstərir

Görünən ondan ibarətdir ki, müstəmləkə siyasəti həyata keçirən və insan azadlıqlarına qarşı geniş müharibə aparan Makron hakimiyyəti bəzən öz maraqlarını təmin etmək üçün terror vasitələrindən də istifadə edir. Yeni terrora hərbi, siyasi dəstək göstərməklə və ya maliyyə yardımları həyata keçirməklə terrorun çiçəklənməsinə çalışır. Misal olara Hizbullaha, Həmasa, PKK-ya, eləcə də erməni terror təşkilatlarına Fransanın hərbi və maliyyə yardımları etməsini göstərmək olar. Makronun İsrail-HAMAS müharibəsini dayandırmaq üçün fəal iş aparmaq əvəzinə savaşın davam etdirilməsinə dəstək verməsi bir daha göstərir ki, Makron rejimi müharibənin davam etməsində maraqlıdır. Çünki müharibənin davam etməsi ilə Fransa gərəksiz və keyfiyyətsiz silah sursatını müharibə aparan dövlətlərə satmaq imkanı qazanır. Xarici media orqanlarında dərc edilən məlumatlara görə, Fransa yaxın münasibət də olduğu Hizbullaha və HƏMAS-a böyük çeşiddə silah-sursat satıb və bu alveri davam etdirməkdədir. Qeyd etmək lazımdır ki, bu gün Fransa dünyada silah ixracatçılarının ilk beşliyindədir. Raket silahı 23 faiz, radioelektronika 22 faiz və aviasiya texnikası 21 faiz təşkil edir. Ölkənin silah istehsal edən şirkətləri dünyanın 130 ölkəsinə silah satışını həyat keçirilər. Əsas silah alıcıları Səudiyyə Ərəbistanı, Misir, Hindistan, BƏƏ və Qətərdir. Son vaxtlar isə Livan, İraq və Ermənistan silah alıcıları siyahısında yer alırlar. Fransa silah tədarükü etməklə kifayətlənməyib, bəzi ölkələrdə terror aktlarının həyata keçirilməsinə də vasitəçi olur. Bu günlər PKK terror təşkilatının Türkiyədə törətdiyi terror aktında Makron hakimiyyətinin əlinin olmasına dair sübutların üzə çıxması buna misal ola bilər. Bütün bunlar onu təsdiq edir ki, Fransa bəşəriyyət üçün təhlükə mənbəyidir. Problemin həlli uzanarsa bundan daha çox insan əziyyət çəkər və cəmiyyətlər problemlərlə qarşılaşa bilər. Ona görə də, dünyanın tərəqqipərvər xalqları və sülhsevər dövlətləri bir araya gələrək insanlığa real təhlükə mənbəyi olan Fransa kimi irticaçı dövlətlərdən xilas olmalıdır.

***İLHAM ƏLİYEV***

# Avropa - ABŞ-ın vassalı

## "Qoca qitə"nin sığmadığı çoxqütblü dünyanın yeni reallığı

Bir çox ölkələrin, o cümlədən Misir və Türkiyə kimi Aİ tərəfdaşlarının BRİCS-ə cəlb edilməsi tamamilə təbiidir. Bunu politoloq Aleksandr del Valle Atlantico-ya müsahibəsində bildirib. Avropanın hərəkətləri ABŞ-ın kölgəsində zəif oyunçu olduğu çoxqütblü dünyanın məntiqi ilə diktə olunur.

***Atlantiko: Bu il BRİKS sammitinə Kazan ev sahibliyi etdi. Avropa İttifaqının bir neçə tərəfdaş ölkəsi, o cümlədən Misir və Türkiyə onun işində iştirak etmək qərarına gəldi. Avropa Şurasının prezidenti Şarl Mişel onların Kazanda "yoxlanmaq" istəyini Qərbə siqnal göndərmək niyyəti kimi şərh edib. Sizcə, bu addım Avropanın geosiyasi aktor statusu haqqında nə deyir?***






Alexandre del Valle: Şarl Mişelin Avropanın öz ticarət tərəfdaşlarına lazımınca hörmət etməməsi ilə bağlı gəldiyi qənaət həm onların nadir sadəlövhlüklərinə, həm də son dərəcə səhv xarakterlərinə görə məyusedicidir. Kim inana bilər ki, Avropa İttifaqı Türkiyə və ya Misirlə pis rəftar edib və beləliklə, onları Rusiyanın qucağına sıxıb? Belə düşünmək bu gün yaşadığımız çoxqütblü dünyanın mahiyyətini dərk etməmək deməkdir. Bundan əlavə, unutmayın ki, 1974-cü ildə Türkiyə ordusu Kiprə daxil oldu, lakin bu, onun 1999-cu ildə Avropa Birliyinə üzv olmaq üçün namizəd statusu almasına mane olmadı. Və bu, baxmayaraq ki, Ankara həm Avropa Şurasının, həm də Aİ-nin özünün bütün mümkün sanksiyalarını və qətnamələrini pozur. İş o yerə gəlir ki, Türkiyə ərazi və dəniz iddiaları ilə bağlı quruma üzv ölkələrdən biri olan Yunanıstanla üz-üzədir. Bundan əlavə, türklər hələ də qoşunlarını Kiprdən çıxarmayıblar. Türkiyə ilə pis rəftar edildiyini demək, Avropa müqavilələri baxımından Ukraynanın Aİ üzvü olmadığı üçün Rusiyadan da pis olduğunu tamamilə unutmaq deməkdir. Bizim Kiprlə Ukraynadan daha sıx əlaqələrimiz var. Bəlkə də Şarl Mişel maraqlarına xidmət etməli olduğu strukturu o qədər də yaxşı bilmir.

Birinci məqamı bitirdikdən sonra biz geosiyasət anlayışına qayıtmalıyıq. Türkiyə və Misirin hərəkətləri realpolitik məntiqə uyğundur. Onlar Rusiya ilə avropalıları incitmək üçün nəsə etmək istəyi ilə maraqlanmırlar; onlar Kazana ona görə getdilər ki, biz çoxqütblü dünyada yaşayırıq, belə bir addım onların maraqlarına cavab verir. Bu o demək deyil ki, onlar Avropaya xor baxmırlar (ən azından Ankara). Türkiyə Avropa qanunlarını və Kopenhagen müqaviləsinin bir çox digər kriteriyalarını pozmasına baxmayaraq, Avropa Birliyinə öz şərtləri ilə daxil olmaq istəyir. Şarl Mişel aydın şəkildə başa düşməkdə çətinlik çəkir - tezislə yanaşı, biz yalnız güc balansını tanıyan liderlərə nə qədər çox tabe olsaq, onlara bir o qədər zəif görünürük. Razılaşma onlar tərəfindən zəiflik əlaməti kimi qəbul edilir.

Misir məsələsində biz, təbii ki, tamam başqa ssenari ilə qarşılaşırıq. Avropa İttifaqı və əslində, bütövlükdə Qərb bizim ticarət tərəfdaşlarımızdan biri olan Qahirəyə çoxlu pul verib. Biz Misirlə çoxlu müqavilələr imzalamışıq və embarqo qoymamışıq. Ancaq unutmaq olmaz ki, azlıqların üzvlərinin həbs oluna biləcəyi bütün ölkələr kimi Misir də Avropa Parlamentinin kifayət qədər sərt sanksiyalarına məruz qalıb. Amma Aİ-nin Misirlə pis rəftar etdiyini söyləmək absurd olardı.

Ümumiyyətlə, biz Viktor Orbanın Macarıstanına münasibətdə bəziləri xristianları və azlıqları təqib edən müsəlman tərəfdaşlarımıza (istər Səudiyyə Ərəbistanı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və ya Misir) münasibətdə olduğundan daha sərt olmuşuq. Nəhayət, Şarl Mişelin təhlili geosiyasi baxımdan kifayət qədər zəif görünür. Biz BRİCS vasitəsilə Rusiya ilə yaxınlaşmağa doğru irəliləyən ölkələrin mütləq Rusiyayönümlü və ya NATO əleyhinə mövqe tutmalı olmadığını gözdən qaçırmamalıyıq. Onların heç biri bizə qarşı deyil, onların hərəkətləri sadəcə olaraq öz milli maraqlarına xidmət edir. Kazanda iştirak edən Hindistanın baş naziri Qərbə hücum etmək üçün digər BRİCS üzvləri ilə yaxınlaşmır. Birləşmiş Ərəb Əmirliklərinin ərazisində Fransanın hərbi bazası yerləşir. Bununla belə, hər iki ölkə sammitdə iştirak etməkdə maraqlıdır - üçüncü ölkələrin potensial tənqidləri isə onları maraqlandırmır. Onlar neftini, qazını və ya hər hansı digər resurslarını istənilən valyutada satmaq istəyirlər. Onlar dedollarizasiya konsepsiyasını ABŞ valyutasına nifrətlə deyil, sadəcə olaraq bəzi hallarda fayda gətirə biləcəyi üçün qəbul edirlər.



Üstəlik, Kazan sammitində bəzi partnyorlarımızın iştirakı ilə verilən siqnalın kifayət qədər aydın olduğunu düşünməyə meylliyəm: bu, bizə deyir ki, Avropa İttifaqı bəzən mənəviyyatın keşikçisi kimi çıxış edir, bəzən isə imperializm nümayiş etdirir. Onun xarici ölkələrin daxili işlərinə qarışmağı xoşladığı kimi, Ukraynada da, Moldovada və Gürcüstanda da edə bildiyi kimi, rusları çox narahat edir. Bu üç ölkədə biz anti-Rusiya prezidentlərini dəstəkləmişik. Biz bunu Moldovada davam etdiririk. Rusiyadan bizə qarşı belə münasibətin səbəblərindən biri də budur. Belə siyasi kurs təkcə Kremli qəzəbləndirmir, həm də məsələn, Ukraynada olduğu kimi münaqişələrin qızışmasına kömək edir. Avropanın əsas problemi odur ki, bu imperiyadır... ləyaqətli görünən, amma yenə də imperiyadır və daim genişlənən bir imperiyadır. Üstəlik, Avropa neytral deyil, çünki o, NATO-nun müdafiə strukturunun bir hissəsidir və Aİ üzvü olan ölkələrin hər biri, hətta alyansın üzvü olmasa belə, eyni nüvə çətirinin müdafiəsindən istifadə edir.

***- Avropadan geosiyasi baxımdan nə dərəcədə əsas aktor kimi danışmaq olar? Beynəlxalq siyasətdə onun daxili bölgüsü onu ikinci dərəcəli rola məhkum etmirmi?***

- Etiraf etmək lazımdır ki, Avropa əsas geosiyasi oyunçu deyil. Bunlar mənim deyil, ən böyük strateqlərdən biri, Pentaqona və Ağ Evə məsləhətlər vermiş, aparıcı jurnallarda, o cümlədən İtaliyanın Limes qəzetlərində məqalələrin müəllifi, amerikalı politoloq Corc Fridmanın sözləridir. 2015-ci ildə Vaşinqtonda etdiyi mühazirədə o, Ukrayna probleminə toxunaraq, amerikalı strateqlər üçün Avropanın olmadığını deyib: "Biz heç bir Avropa qurumunu tanımırıq". Daha sonra o əlavə edib ki, əslində Avropada indi ciddi siyasi qurum yoxdur. Fridman aydınlaşdırıb ki, ABŞ ruslara qarşı mübarizədə arxalana biləcək rumınları, eləcə də polyak və ukraynalıları tanıyır. Mahiyyət etibarı ilə o izah etdi ki, amerikalı strateqləri bütövlükdə Avropa Birliyi deyil, ayrı-ayrı avropalı oyunçular maraqlandırır. Çox aydın. 2023-cü ilin noyabrında vəfat edən Henri Kissinceri də qeyd edə bilərsiniz. O da məşhur ifadəsi ilə məşhur olan böyük bir strateq idi: "Avropa ilə danışmaq üçün kimə zəng etməliyəm?". Burada bu məsələ ilə bağlı eyni fikirdə olan iki nəfərin - müasirimizin və yaşlı nəslin nümayəndəsinin nümunəsini təqdim edirik.

***- ABŞ-dan asılılıq barədə nə deyə bilərsiniz? Avropa əsas müttəfiqinə tamamilə tabe olduğu halda geosiyasi məsələlərdə aparıcı rola iddia edə bilərmi? Qarşıdan gələn prezident seçkiləri vəziyyəti nə dərəcədə dəyişə bilər?***

- Çox vacib bir mövzuya toxundunuz. Əvvəlcə açıq deyim: mən anti-Amerika deyiləm. Əksinə, onların əla partnyor ola biləcəyi tezisinə birinci mən abunə oluram. General de Qoll haqsız yerə antiamerikanizmdə ittiham olunanda dediklərini xatırlayın. Bununla belə, o, NATO-ya qarşı deyildi: o, sadəcə Avropanın öz müdafiəsinə daha çox sərmayə qoymasını və özünə güvənməsini istəyirdi - eyni zamanda ABŞ-ın müttəfiqi olaraq qalırdı. Onu da qeyd edək ki, sərt və ya ciddi qərar qəbul etmək lazım gəldikdə de Qoll həmişə amerikalıların tərəfini tuturdu. Beləliklə, Avropa Birləşmiş Ştatlara xəyanət etmədən və Rusiyanın maraqları üçün kanala çevrilmədən asanlıqla öz muxtariyyəti üzərində işləyə bilər. Avropanın Rusiya tərəfdarı və anti-Rusiya mövqeyi arasında seçim etməsinə ehtiyac yoxdur: doğru yol ortadadır. Təəssüf ki, Avropa daxili və xarici təzyiqlərə görə öhdəlik götürə bilmir. Bir çox liderlərimiz dövlət başçısı postundan getdikdən sonra Amerikanın hansısa transmilli korporasiyasında kürsü almaq arzusundadırlar. Bu, Goldman Sachs-a köçən Avropa Komissiyasının keçmiş prezidenti Joze Manuel Duran Barrozu ilə baş verdi. Buna görə də bizim elitamızın bəzi üzvlərinin həvəslə Amerikanın rəhbərliyinə tabe olması təəccüblü deyil.

Və daha bir vacib məqam: Avropada öz strukturuna görə üzv ölkələr arasında çox güclü bölünmə var. Buraya maraqları mütləq üst-üstə düşməyən bir çox paytaxtlar daxildir ki, bu da avtomatik olaraq onun muxtariyyət qazanmasına əngəl yaradır. Bu, Vaşinqtonun günahı deyil - hətta onlar Avropanın vahid müdafiə sisteminə malik olmasını istəməsələr də, bu məsələdə fransız və almanları bir-birinə qarşı qoymaq üçün hər şeyi edirlər. Beləliklə, elitalarımızın amerikanlaşmasının bir çox səbəbləri var: həm struktur (biz vahid sistem yarada bilməsək, NATO olmadan Avropanın müdafiəsini təmin edə bilməyəcəyik) və situasiya (burada kompromisləri və çox vaxt şəxsi maraqların üstünlüyünü nəzərdə tuturam) kollektiv olanlar.

Təbii ki, ABŞ-da qarşıdan gələn prezident seçkiləri çox güman ki, dramatik dəyişikliklərə səbəb olacaq. Məşhur və parlaq Qollist de Vilpenin haqlı olaraq qeyd etdiyi kimi, Respublikaçılar haqqında mənəvi və ya ideoloji baxımdan nə düşündüyümüzdən asılı olmayaraq, Donald Trampın yenidən prezident seçilməsi Avropanın strateji maraqlarına xidmət edə bilər. Bu proqnozu kifayət qədər sadə izah etmək olar: Donald Tramp bu yaxınlarda ölkəsini NATO-dan çıxarmağı təklif etdi. Beləliklə, o, Şimali Atlantika Müqaviləsini de-fakto sıradan çıxarır, bu baxımdan ABŞ-dan ən çox asılı olan ölkələri müdafiəsiz qoyur. Belə bir addım onlar üçün ümumavropa müdafiə sisteminin yaradılması üzərində işləmək üçün ciddi stimul olacaq. Təbii ki, belə bir ssenarinin baş vermə ehtimalının son dərəcə aşağı olduğu göz qabağındadır.

***- Yeni geosiyasi güclərin meydana çıxması Avropanın təsirinin zəifləməsinə nə dərəcədə kömək edir?***

- Düzünü desək, çoxqütblü dünya qütblərin və ya blokların mövcudluğu məntiqinə tabe olmur. Bu, daha çox milli dövlətlər dünyasıdır. Bu, həm kiçik ölkələri - məsələn, Sinqapur və ya Birləşmiş Ərəb Əmirliklərini - və çox böyük olanları ehtiva edir: Çin, Hindistan və Rusiya. Çox vaxt göz-gözə baxmırlar. Məsələn, ruslar və türkləri götürək: tarixi baxımdan onlar düşməndirlər. Çinlilər və hindular kimi. Amma bu, onların BRICS və ya oxşar miqyaslı digər təşkilatlar çərçivəsində görüşməsinə mane olmur. Və bu konfiqurasiyada heç kim monolit regionlar yaratmaqdan danışmır: onlar dövlətlər kimi, beynəlxalq münasibətlərin dəyərinə inanan xalqlar kimi birləşirlər və yalnız dövlətin beynəlxalq arenada yeganə əhəmiyyətli oyunçu olduğunu dərk edirlər. Özlərini qanundan üstün tuturlar, çünki istəsələr, müqavilələri yerinə yetirməkdən imtina edə bilərlər. Çoxqütblü dünyada səsvermə hüququ olmayan dövlətlər uğursuzluğa məhkum olan zəif oyunçulardır. ABŞ-ın vassalı olan Avropa çoxqütblü dünyada müstəqil aktyor olmaq iqtidarında deyil.

***V.VƏLİYEV***
***(Tərcümə)***

EKSPERT AÇIQLADI

# Necə bilək ki, diplomumuz tanınacaq?






"Azərbaycan vətəndaşları xaricdə təhsil almadan öncə həmin universitetin diplomunun Azərbaycanda tanınıb-tanınmadığını araşdırmaq üçün bir neçə addım atmalıdır. Bu addımların əsas məqsədi tələbələrin xaricdə əldə etdikləri təhsil sənədlərinin Azərbaycanda hüquqi qüvvəyə malik olmasını təmin etməkdir, çünki əks halda onlar bu diplomlarla ölkə daxilində iş tapmaqda çətinliklərlə üzləşə bilər. Bu istiqamətdə ilk addım Təhsil Nazirliyinin diplom tanınması üzrə qaydalarına uyğun hərəkət etməkdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: "Nazirlik, həm dövlət, həm də qeyri-dövlət universitetlərinin müəyyən standartlara uyğun gələn diplomlarını tanıyır. Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu məlumatları öz rəsmi saytında yeniləyir və tələbələrə diplom tanınması üçün müraciət etməzdən əvvəl həmin resurslardan istifadə etməyi məsləhət görür. Azərbaycanda xarici diplomların tanınması prosesi bir neçə mərhələdən ibarətdir və bunlardan biri də universitetin akreditasiya olunmuş və rəsmi şəkildə tanınan təhsil müəssisəsi olmasıdır. Xaricdə təhsil almaq istəyənlər getməyi planlaşdırdıqları universitetin və ya təhsil müəssisəsinin tədris proqramlarının Təhsil Nazirliyi tərəfindən tanınıb-tanınmadığını öyrənmək üçün nazirliyin müvafiq siyahısını və ya ölkələrin tanınan universitetləri ilə bağlı məlumatları diqqətlə nəzərdən keçirməlidir. Bu addım tələbənin diplomunun geri döndükdə hüquqi statusunun təsdiqini təmin edir və ona dövlət qurumlarında, özəl sektorda iş imkanı yaradır.

Xaricdə təhsil almağa gedənlər həm də universitetin təhsil keyfiyyətinə diqqət yetirməlidirlər. Məsələn, universitetin reytinqi, dünya təhsil sıralamasında mövqeyi, müəllim heyətinin səviyyəsi və tədris proqramlarının uyğunluğu təhsil keyfiyyətini müəyyən edən əsas faktorlardandır. Tələbələr gedəcəkləri universitetin xaricdəki keyfiyyət göstəricilərini araşdıraraq təhsillərinin daha geniş imkanlar açıb-açmayacağını anlaya bilərlər. Əlavə olaraq, bu addımları atmaq tələbələrə diplomları ilə beynəlxalq əmək bazarında daha asan iş tapma imkanı da yarada bilər.

Tələbələr təhsil aldıqları ölkənin hüquqi və sosial qaydalarına, viza tələblərinə və yaşayış şərtlərinə də diqqət yetirməlidirlər. Təhsilə başlamazdan öncə ölkənin tələbələrə münasibəti, viza qaydaları, iş imkanları və tələbə olaraq sahib olduqları hüquqlar haqqında məlumat əldə etmək, xaricdəki həyatlarını asanlaşdıracaq bir addımdır. Məsələn, bəzi ölkələr tələbələrə müəyyən saatlarda işləmək imkanı tanıyır, lakin bu qaydalar ölkədən ölkəyə fərqlənir və bəzi hallarda vizanın pozulması ilə nəticələnə bilər. Buna görə də təhsil almağa gedən tələbələr əvvəlcədən ölkənin qanunları ilə tanış olmalıdır.

Tələbələr həmçinin dələduzluq riskinə qarşı ehtiyatlı olmalıdırlar. Bəzi hallarda saxta təhsil müəssisələri tələbələrə yüksək təkliflər edir, lakin bu diplomlar tanınmır və ya reallıqla əlaqəsi olmayan təhsil proqramlarına əsaslanır. Tələbələr yalnız rəsmi mənbələrdən və təcrübəli agentliklərdən dəstək alaraq bu təhlükələrdən qoruna bilərlər. Azərbaycanın xarici təhsil üzrə diplomatik nümayəndəlikləri və Təhsil Nazirliyinin rəsmi kanalları bu sahədə etibarlı mənbələrdir.

Xaricdə təhsil almaq istəyən Azərbaycan vətəndaşları bu məsələlərə diqqət etməklə təhsillərinin sonrakı dövrdə onlara üstünlük qazandırmasını təmin edə bilərlər".

***Ayşən Vəli***

# COP29 Yaşıl Zona üzrə biletlərin verilmə tarixi açıqlanıb

***Bu ilin 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək COP29 konfransı çərçivəsində təşkil olunacaq Yaşıl Zonaya giriş biletlərinin əldə edilməsi prosesi 9 noyabr tarixindən etibarən başlanılacaq. Bu barədə SİA-ya COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib. Bildirilib ki, geniş ictimaiyyət üçün açıq olacaq COP29 Yaşıl Zona üzə biletləri ödənişsiz olaraq onlayn qaydada əldə etmək mümkün olacaq.***




Məlum olduğu kimi, COP29 konfransının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) tərəfindən idarə edilən və rəsmi danışıqların mərkəzi olan Mavi Zona ilə yanaşı həmçinin COP29 Sədrliyi tərəfindən təşkil və idarə edilən və icmaların iştirakı, texnoloji həllər və qlobal əməkdaşlığa yönəlik Yaşıl Zona da fəaliyyət göstərəcək. Yaşıl Zona iqlim məsələləri ilə bağlı müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor təmsilçiləri, media, elm adamları, ekspertlər, yerli icmalar, vətəndaş cəmiyyəti institutları və rəsmi Mavi Zona nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələcəyi məkandır.

Qeyd edilib ki, Yaşıl Zona proqramı müxtəlif sahələrdə dayanıqlılıq və iqlim fəaliyyəti ilə bağlı bir sıra təşəbbüs və müzakirələri əhatə edir, iqlim dəyişməlәri üzrə həllərin təşviqi sahəsində gənclərin, eləcə də qadın və yerli icmaların daha geniş iştirakını ehtiva edir. Bundan əlavə, Yaşıl Zona dayanıqlı inkişaf naminə QHT-lər, eləcə də şirkət və ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsini də təşviq edir.

İqlim fəaliyyəti ilə yaxından tanış olmaq istəyən kəs üçün açıq olan Yaşıl Zonaya biletlərini ödənişsiz şəkildə iTicket platforması vasitəsilə elektron formada əldə etmək mümkün olacaq. Konfransın dayanıqlılıq prinsipləri nəzərə alınaraq, elektron biletlərin çap edilməsi və kağız daşıyıcıda təqdim olunması tələb edilmir.

Qeyd edək ki, COP29 Yaşıl Zonaya böyük maraq nəzərə alınaraq sözügedən biletlər konfransın keçiriləcəyi müddət ərzində hər ayrıca gün və bu günlərin müxtəlif saat slotları üzrə ayrıca əldə edilməlidir. Biletlər hər növbəti gün üçün iki gün öncədən reliz ediləcək. Yaşıl Zona biletləri haqqında daha ətraflı məlumatı COP29 rəsmi veb saytının müvafiq bölməsindən əldə edə, aidiyyəti suallarınızı isə ticketing@cop29.az elektron poçt ünvanına yönləndirə bilərsiniz.

# "Qərb siyasi dairələrinin müdaxilə cəhdləri artıq ənənə halını alıb"

"Ayrı-ayrı ölkələrdəki proseslərə Qərbin müdaxilə cəhdləri onların xarici siyasi fəaliyyətinin ayrılmaz komponentini təşkil edir. Qərb ölkələrinin xüsusi xidmət orqanlarından tutmuş müxtəlif siyasi dairələrinə qədər müxtəlif ölkələrdəki proseslərə təsir etməsi və ya bu istiqamətdəki cəhdləri ənənəvi xarakter daşıyır. Qərb bu cür müdaxiləri geosiyasi maraqlarının həlli üçün həyata keçirir. Belə ki, seçkilərdə bir qayda olaraq Qərb üçün gərəkli olan siyasi qüvvələrin üstünlüyünü təmin etmək məqsədi güdülür. Qərb müxtəlif formalarda siyasi qruplara və ya konkret şəxsə siyasi dəstək göstərməklə onun seçki prosesində qələbə qazanmasını təmin edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Mirbəşiroğlu deyib.O bildirib ki, son illərdə post-Sovet ölkələrində Qərb siyasi dairələrinin seçki proseslərinə müdaxilə cəhdləri artıq ənənə halını alıb: "Bu zaman əksər hallarda Qərb öz dəstəklədiyi siyasi qüvvələrə geniş maliyyə imkanları yaradır. Bununla bərabər Qərbin siyasi texnoloqları da ayrı-ayrı ölkələrdə kifayət qədər fəallıq nümayiş etdirirlər. Qərb dairələrinin dəstəklədiyi siyasi qüvvələrin cəlbedici siyasi portretlərinin yaradılması, onların seçki şüarlarının formalaşdırılması və s. kimi komponentləri yaratmaqla onlar seçkilərə birbaşa müdaxilə etmiş olurlar. Seçkidən öncə bu və ya digər siyasi qüvvələrin əleyhinə olacaq bəyanatlar səslәndirməklə də artıq seçki prosesinə müdaxilə etmiş sayılırlar. Bütün bunlar həmin ölkələrdə gələcəkdə Qərbin maraqlarına xidmət edəcək siyasi qrupların formalaşmasını təmin edir. Bu zaman müdaxilələr ayrı-ayrı ölkələrdə demokratik seçkilərin keçirilməsinin vacibliyi ilə heç bir halda uzlaşmır. Əksinə istənilən vasitələrlə, hətta qeyri-qanuni üsullarla ayrı-ayrı siyasi qüvvələrə dəstək göstərilir. Eyni zamanda Qərbin dəstəklədiyi hakim siyasi rejimlər kütləvi pozuntular fonunda seçkilər keçirərək qələbə qazanırlarsa, həmin seçkilər Qərb tərəfindən legitim qəbul olunur və tanınır. Qərb üçün məqbul olmayan hakimiyyətlərdə seçkilər bütün hallarda əsassız tənqidlərə məruz qalır. Yəni Qərb əksər hallarda belə seçkiləri tanımır. Bu da Qərbin birbaşa olaraq maraqlarına xidmət edir.Oktyabrın 26-da Gürcüstanda parlament seçkiləri keçirildi. Seçki prosesi şəffaflıq şəraitində təşkil olundu və səsvermənin nəticələri elektron olaraq anındaca müəyyənləşirdi. Gürcüstanda keçirilmiş seçkilər Avropa ölkələri tərəfindən ciddi tənqidə məruz qaldı, bir çoxları isə ümumiyyətlə seçkinin nəticələrini tanımadı. Amma əslində Gürcüstanda xalq çox sərbəst şəkildə öz iradəsini ifadə etdi. Bu seçkilərə Qərb çox böyük ümid bağlayırdı, rejim dəyişikliyinə nail ola biləcəyinə inanırdı. Amma bu baş tutmadı, gürcü xalqı öz gələcək inkişaf yolunu düzgün müəyyənləşdirməyi seçdi və şəffaf seçki prosesi baş tutdu.Bütün bunlar nümayiş etdirir ki, Qərb ayrı-ayrı ölkələrdəki seçkiləri həmin ölkələrdə öz maraqlarına uyğun siyasi dəyişikliklər etmək üçün fürsət kimi görür. Bu səbəbdən də hər vasitə ilə seçkilərə müdaxilə etməyə çalışır. Qərb müxtəlif ölkələrdəki seçki prosesini daim nərazətdə saxlayır və müdaxilələrini səngitmir. Bu da həmin ölkələrin milli maraqları üçün ciddi təhlükə yaradır".



***Səbinə Hüseynli***

# "COP29 Azərbaycanın ekoloji problemlərinin həlli üçün təkan olacaq"



**2024-cü ilin 11-24 noyabr tarixlərində Bakıda COP29 konfransı təşkil olunacaq. COP, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. Konfrans çərçivəsində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərə qədər nümayəndə heyətinin Bakıya gələcəyi gözlənilir. Ekoloq Jurnalistlər Birliyinin sədri, jurnalist-ekoloq Cəmşid Bəxtiyarla bu mövzu ətrafında müzakirə apardıq.**

*-Azərbaycan bu il BMT-nın İqlim Dəyişikliyi Konfransına (COP29) ev sahibliyi edəcək. Bu Azərbaycan üçün nə vəd edir?*

- BMT nin İqlim Dəyişikliyi Konfransının növbəti 29-cu toplantısının Azərbaycanda keçirilməsi, Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi Azərbaycan üçün bir çox dividendlər vəd edir. Siyasi dividendlərdən əlavə, Azərbaycandan da yan keçməyən qlobal problemlər - ətraf mühit problemləri, məsələn, səhralaşma prosesinin, şoranlaşmanın sürətlənməsi, eyni zamanda meşələrin tükənməyə doğru getməsinin müzakirəsi deməkdir.

Əlbəttə meşələrin tükənməsi səhralaşma prosesinin tərkib hissəsi sayılır. Azərbaycanın meşə fondu getdikcə azalan xəttlə inkişaf edir. Son 80 ilin statistikasına diqqət eləsək, görəcəyik ki, Azərbaycanın 80 il əvvəlki meşə fondunun indi heç 60 faizi qalmayıb. Bu, acınacaqlı bir göstəricidir və Azərbaycanda bu prosesin qarşısının alınması istiqamətində güclü bir təkan olacağını COP29-dan gözləmək olar. Bu tədbirin Azərbaycanda keçirilməsinin xüsusi bir təkan olacağını gözləmək olar və buna çox ümid edirəm.

*-Tükənən enerji ehtiyatlarına alternativ ölkəmizdə ən əlverişli yaşıl enerji imkanı nədir? Külək, günəş, su ilə enerji imkanları necə dəyərləndirilməlidir?*

- Alternativ enerji resurslarına görə bizim ölkəmiz planetimizin ən zəngin ölkələrindən biri hesab olunur. Bizim ölkənin müxtəlif əraziləri, Bakı və Abşeron ərazisi həm külək enerjisi üçün, həm də günəş enerjisi üçün çox əlverişli imkanlara malikdir. Məsələn, Qobustandakı Günəş Günəş enerjisi stansiyası indiyə qədərki göstəricilərinə görə sübut edir ki, burada həqiqətən də günəş enerjisi üçün çox faydalı imkanlar var və bu imkanlardan təbii ki, istifadə etmək ətraf mühit problemlərinin həllində xüsusi bir rola malikdir.

Eyni zamanda külək enerjisindən istifadə barədə də bunu demək olar. Külək enerjisi təkcə Bakı, Xəzər sahili zolaqda deyil. Eyni zamanda bizim yüksək dağlıq ərazilərdə də böyük imkanlar var. Bunlardan istifadə etmək üçün faydalı mövqelər mövcuddur. Məsələn, dağ yüksəkliklərində güclü küləklərin olmasını, dağda yaşayan, dağlıq ərazilərimizə bələd insanların hər biri təsdiq eləyə bilər. Məsələn, Kəlbəcərin Sarıyer yaylağında ilin bütün fəsillərində güclü küləklər əsir, xüsusilə də qış aylarında.

Yəni belə ərazilərimiz kifayət qədərdir, bu ərzilərin həmin imkanlarından ağıllı şəkildə istifadə etsək, əlbəttə, bu, həm də enerji bolluğu deməkdir, həmçinin ətraf mühit, problemlərin həllində də bunların böyük faydası var.

Bu fayda nədən ibarətdir? Məsələn, biz bilirik ki, bir çox dağlıq ərazilərdə qazlaşdırma mümkün olmadığına görə, odundan yanacaq kimi istifadə çox qədim zamanlardan bir ənənə şəklini alıb və bu, çox təəssüf ki, hələ indiyə qədər davam edir. Meşələrin mühafizəsi nə qədər yaxşı təşkil olunsa belə, heç kim ailəsinin qışda soyuqdan donmasını qəbul etməyəcək. Təbii ki, buna görə də hər hansı bir üsulla meşədən odun gətirib qışda yanacaq kimi istifadə etməyə can atacaq. Bunun qarşısını heç nə ilə almaq mümkün deyil. İnsanları qışın şaxtası ilə baş-başa buraxmaq təbii ki, bu çıxış yolu deyil. Bu halda bizim ağlımıza ən yaxşı, ən faydalı bir çıxış yolu kimi alternativ enerji mənbələrindən həmin ərazilərdə istifadə etmək və gəlir və bu imkanlardan istifadə olunarsa, həm ətraf mühit problemlərinin həllinə nail olmaq olar, həm də enerji bolluğu yaratmış olarıq və buna görə də alternativ enerji mənbələrindən istifadə istənilən halda fayda gətirir.

*-Biokütlədən alınan enerji bizim ölkəmiz üçün effektiv ola bilərmi? Buna yetərli təminat varmı?*

-Biokütlələrdən alınan bioqazmetan qazı istehsalı imkanları var. İstənilən bir maldarlıq, heyvandarlıq ferması yaxınlığında bu enerjidən istifadə üçün imkanlar var və bu imkanlardan təbii ki, ağıllı şəkildə istifadə olunarsa, bunun bir çox faydaları ola bilər. Digər alternativ enerji növlərindən bioenerji təbiətə, cəmiyyətə verdiyi faydalar baxımından daha üstündür. daha faydalıdır. Bu enerji növü daha çox təbii qazın alternatividir, çünki bioqaz qurğularının istehsal etdiyi enerji metan qazından ibarətdir və bu da təbii qaz kimi yanar qazdı. O təbii qaza nisbətən daha ağır yanacaqdır, yəni onun verdiyi istilik enerjisi daha çoxdur, istilik əmsalı daha üstündür.

Digər tərəfdən, məsələn, bioqaz enerjisinin xüsusi bir xətlərlə çəkilişinə ehtiyac yoxdur. Lokal qurğulardan istifadə olunur və elə mövcud olduğu yerdə də istifadəsi mümkündür. Təbii qazın isə yüksək dağlıq regionlara təchizatında bildiyimiz çətinliklər var. Relyef, uzaqlıq məsələləri, ümumiyyətlə daha çox vəsait tələb olunur. Amma bu vəsaitin tələb olunmadığı bir enerji növü axtarmalı olsaq, bioqaz enerjisinin üzərində dayanmalıyıq. Bioqaz enerjisinin istənilən heyvandarlıq təsərrüfatı olan yerlərdə tətbiqi mümkündür. Yəni heyvandarlıq təsərrüfatlarının tullantısını, peyinini bioqaz qurğularında xüsusi bir prosesə məruz qoymaq əldə edilir.

Bu prosesdə peyinin tərkibindəki biorqanizmlər, mikroorqanizmlər aktivləşdirilir. Onlar da bir neçə qrupa bölünürlər - psixofillər, termofillər, mezofillər. Mezofillər ikinci yerdədir, temperatur tələbatına görə. Termofillər isə 45 dərəcədən yuxarıda aktivləşirlər. Psixofillər və mezofillər daha aşağı temperaturlarda aktivləşə bilirlər və bunların hər hansı bir reaktorda aktivləşdirilməsi yolu ilə peyindən əmələ gətirdiyi qaz, təbii qazın alternativ olaraq bir yanacaq kimi istifadə oluna bilər. Bu üsul meşələrin qorunmasında ən faydalı resursdur. Digər tərəfdən bioqaz qurğularının əsas faydası heyvandarlıq təsərrüfatlarının tullantısının ətraf mühitə verdiyi zərərin qarşısını ala bilməsidir. Bir çox ekoloqlar hətta bu zərərin qarşısını almaq üçün heyvandarlıq təsərrüfatlarının azaldılmasını, bir çoxları isə ümumiyyətlə ixtisarına dair çağırışlar edirlər.

*- İstixana qazları emissiyalarını nəzərdə tutursunuz?*

-Bəli. Peyin heyvandarlıq təsərrüfatlarının tullantısıdır, atmosferə açıq şəkildə atıldığı zaman orada gedən xüsusi proseslər nəticəsində ayrılan metan qazı atmosferin yuxarı qatlarına qalxır və istixana effekti deyilən problemin yaranması ilə nəticələnir. Bu metan qazının bioqaz qurğularının reaktrında toplaşması isə bu qazdan faydalı bir enerji növü kimi istifadə etmək deməkdir. Bununla metan qazının atmosferə atılmasının qarşısını alırıq və istixana effekti yaranmasındakı iştirakına mane olmuş oluruq.

Üstəlik bioqaz qurğusunun verdiyi faydalar bununla bitmir. Bioqaz qurğularının daha bir faydası isə həmin istifadə edilən peyindəki mikroorqanizmlər o peyini həzm edərək yeyib yenidən ifraz etməsidir və həmin peyin artıq peyin olmaqdan çıxaraq bioqumusa çevrilir. Bioqumus isə ən faydalı və ən qiymətli gübrədir. Onun Avropadakı 20 il bundan əvvəlki qiyməti 4000 evro idi. İndiki qiyməti düzü necədir, onu bilmirəm, amma yəqin ki, bu son bahalaşmalar, inflyasiya bioqumusun da qiymətində artıma səbəb olub. Yəni bu çox faydalı bir gübrə növüdür və həmin biokütlə enerjisi ilə əldə eləmək olur. Digər tərəfdən isə təbii qaz xətlərinin çəkilişinin tələb etdiyi artıq xərclərdən yaxa qurtarmış oluruq.

*-Yaşıl enerjidən faydalanan hansı ölkənin təcrübəsi bizim üçün yol xəritəsi ola bilər?*

-Yaşıl enerjidən faydalanan ölkələr çoxdur. Məsələn, bir çox Avropa ölkələri, o cümlədən Skandinaviya ölkələrində. Almaniyanın özündə, bir çox başqa Avropa ölkələrində, Hollandiyada alternativ enerjilərdən gen-bol istifadə olunur. Onların bizim üçün yol xəritəsi ola bilməsi bəlkə də mümkündür, amma mən bunu istəməzdim. Çünki mən daha üstün bir modelin Azərbaycanda tətbiq olunmasını gözləyirəm və biz buna nail ola bilərik. Ölkə başçısının bu sahədə atdığı addımlar və onun bu sahədəki irəliləyişi, bu tətbiqin bizə verə biləcəyi faydanı çox gözəl anlaması, bir çox məsələlərin tezliklə həll olunacağını, bu istiqamətdə tezliklə yüksək bir inkişafa nail olacağımızı proqnozlaşdırır. Mən buna ümid edirəm və inanıram.

*-Bakı kimi küləkli bir şəhərdə küləkdən enerji almaq üçün çox vəsait tələb olunur?*

-Enerji imkanları külək, günəş, su, eyni zamanda bioenerji sahəsində hər regiona görə müxtəlif cür dəyərləndirilməlidir. Məsələn, dağ çaylarının üzərində mini su elektrik stansiyalarının tikilməsi xüsusi bir enerji bolluğu yaratmağa qadirdir. Məsələn, təkcə işğaldan azad olunandan bəri Kəlbəcərin ərazisindən axan Tərtər çayı üzərində bir neçə mini su elektrik stansiyası tikilib və artıq Kəlbəcər bir bölgə olaraq nəinki özünü, hətta qonşu bölgələri də elektrik enerjisi ilə təchiz etmək gücündədir. Hal hazırda orada təqribən 4-5 mini elektrik stansiyası istifadəyə verilib. Amma bu heç də tam siyahısı deyil orada tikiləcək su elektrik stansiyalarının. Təkcə Tərtər çayı üzərində 12 belə kiçik mini su elektrik stansiyası tikilməsi planlaşdırılır. Onlardan 4 və yaxud 5-i artıq istifadəyə verilib. Vaxtilə Kəlbəcər yeni işğaldan azad olunanda ora Daşkəsən ərazisinə çəkilən elektrik xətti ilə indi artıq Kəlbəcərə deyil, Kəlbəcərdən elektrik enerjisi nəql edilir və bu, qonşu rayonların ehtiyaclarına yönəldilir.

Təkcə Bakıda deyil, külək enerjisindən istifadə imkanları Azərbaycanın başqa regionlarında da var. Amma hətta Bakı, Abşeron, ümumiyyətlə Xəzər sahili ərazilər külək enerjisindən istifadə üçün böyük imkanlar verməsinə baxmayaraq, bəli, külək enerjisindən istifadə də o qədər də ucuz deyil. Niyə? Ona görə ki, o qurğuları biz özümüz istehsal eləmirik. Biz onları başqa istehsalçı ölkələrdən alıb gətiririk və onlar onu heç də ucuz qiymətə satmırlar. Günəş enerjisi əldə etmək üçün lazım olan günəş panelləri və onun digər aksessuarlarını, akkumlyatorları bahadır.

*-Bərpa olunan enerji mənbələrinin payının artması üçün hansı tədbirlər görülməlidir?*

-Əlbəttə ki, alternativ enerji poliqonlarının sayını artırmaq lazımdır. Bu sahəyə xüsusi yatırımlar eləmək lazımdır dövlət səviyyəsində. Günəş enerji poliqonları, külək enerji stansiyaları, çoxlu su elektrik stansiyalarının bunların sayını artırmaq, genişləndirmək lazımdır. Amma bioqaz enerjisindən istifadənin bu siyahıya əlavə olunması, onun da payının sanballı bir yer tutması üçün başqa tədbirlərə də ehtiyac var. Bu nədir? Kənd təsərrüfatı, heyvandarlıqla məşğul olan insanların bu sahəyə marağını artırmaq lazımdır. Təbliğatı müəyyən bir səviyyəyə qaldırılmalıdır. Bu bir jurnalistin yazması ilə kifayət eləmir, ümumiyyətlə, mətbuata bu sahənin təbliği ilə bağlı xüsusi tapşırıqlar verilməlidir. Jurnalistlər əlbir olaraq bu sahənin təbliğatına xüsusi diqqət ayırmalıdırlar. Yəni mətbuatın rolu danılmazdır.

Digər tərəfdən, dövlət həmin təsərrüfat sahiblərini maraqlandırmalıdır ki, onlar alternativ enerjinin məhz bu növündən - bioqazlardan istifadə etsinlər. Çünki bu xüsusi bir əziyyət tələb eləyən işdir. Təsərrüfat sahibi üçün əlavə bir fiziki əməkdir bu, peyinin ora yüklənməsi, bu qurğuya qulluq olunması əlavə işdir. Dövlət təkcə enerji təchizatı baxımından yox, əlavə olaraq əməyi qiymətləndirilməlidir ki, təsərrüfatçı maraqlı olsun. Yəni bir təsərrüfatı üçün əlavə bir bioqaz qurğusu sadəcə qaz almaq məqsədi daşımamalıdır, həmin təsərrüfat sahibindən gübrənin satın alınması dövlət səviyyəsində təşkil olunmalıdır. Əlavə olaraq onun bu bioqaza çəkdiyi zəhmət ödənilməlidir.

Burada dövlət nə qazanacaq? Zərərli qazların atmosferə açıq şəkildə atılmasının qarşısını alacaq və onun bayaq sadaladığım zərərlərindən atmosferi qorumuş olacaq, üstəlik zəhmətkeş insanın zəhməti qiymətləndiriləcək. Əks halda bioqaz enerjisinin tətbiqinə edilən hər hansı bir tətbiq sonda uğursuzluqla nəticələnəcək. Hər hansı bir həvəskar ekoloq ola bilər ki, buna cəhd eləsin, hər hansı bir şəkildə buna nail olsun. Amma onun davamlı olaraq bunu sona qədər bu qurğunu işlək vəziyyətdə saxlaması və bir nümunə kimi hamıya göstərməsi ki, baxın necə də faydalıdır, bu qeyri-mümkündür. Qonşusu ondan bir fayda görməyəcək, çünki o, bunu dəlilik hesab edəcək ki, bu qədər əziyyət çəkir. Fikirləşəcək ki, ayda 10 -15 manat qaza pul xərcləyir və qazla təchiz olunur, amma bu adam gör nə qədər əziyyət çəkir ki, nə var, nə var 15 manat pula qənaət edəcək. Onlar bunu belə qiymətləndirirlər. Amma əslində isə bayaq sadaladığım faydaları var, dövlətə, atmosferə, dünyaya. Ona görə bu cür təşəbbüs göstərən həvəskar ekoloqlar dövlət səviyyəsində qiymətləndirilməlidir və bu yolla insanlar təşviq edilməlidir.

**Lalə Mehralı**

# Avropa Parlamentində Azərbaycanla bağlı qəbul olunan qətnamə əhəmiyyətsiz kağız parçasıdır

***Avropa Parlamentində (AP) bu günlərdə guya Azərbaycanda insan hüquqları pozuntuları ilə bağlı qəbul edilən qətnamə təsisatın illərdən bəri sadiq qaldığı anti-Azərbaycan ənənəsinə uyğun siyasətini əks etdirdiyi üçün təəccüblənmədik. Qətnamədə yazılanlar ölkəmizə qarşı son aylarda ABŞ-ın, Qərbin apardıqları təxribatların bir növ icmalı idi. Bəzi məqamları xatırlatmaqla bu reallığı təsdiqləmək o qədər də çətin deyil.***





ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın erməni lobbisinin sifarişi ilə Konqresdəki dinləmələrdə Azərbaycan əleyhinə səsləndirdiyi əsassız ittihamları yada salaq. Yəni, ABŞ açıq şəkildə Bakıya bildirirdi ki, Ermənistanla sülh yolunda irəliləyiş olmayana qədər Azərbaycanla münasibətlər normal olmayacaq. Avropa İttifaqının təşkil etdiyi üçtərəfli və dördtərəfli Praqa, Brüssel, Moldova görüşlərində Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən bəyanatlar versə də, sonradan havadarlarının diktəsi ilə başqa havalara oynadı. Qranada görüşündən əvvəl İrəvana səfər edən, «Ermənistan Respublikasının ərazi bütövlüyünü təhdid edən istənilən hərəkətə çox sərt cavab veriləcək», «Qarabağın blokadası və məcburi köçürülmə» sayıqlamaları ilə Azərbaycanı təhdid edən Fransanın sabiq Avropa və xarici işlər naziri Ketrin Kolonnanın sözləri rəsmi Parisin ənənəvi erməni sevgisinin daha bir təsdiqi idi. Onun Qranada görüşü öncəsi Bakı ilə İrəvan arasında vəziyyəti yenidən qızışdıran bu cür sayıqlamaları nəzərdə tutulan beştərəfli görüşün ermənilərə dəstək duetinin dəyişilməyən nəqarəti idi. Bölgədəki gərginliyin davamında maraqlı olan Fransanın sabiq XİN başçısının Ermənistanı silahlandırmaqla bağlı açıqlamaları rəsmi Parisin əsl niyyətini, məqsədini növbəti dəfə ortaya qoymuşdu. Bu baxımdan Prezident İlham Əliyev Qranada görüşü ərəfəsində Azərbaycan əleyhinə çıxışlar edərək, bölgədə gərginliyi pik həddə çatdırmağı hədəfləyən, sülh danışıqlarına mane olmağa çalışan Fransanın regional məsələlərdə iştirakını qəbuledilməz hesab edirdi.

Təzyiq ritorikasının növbəti siyasi şousu Avropa İttifaqı (Aİ), Fransa və Almaniya liderlərinin iştirakı ilə Ermənistanın baş naziri Nikol Paşinyanla nəzərdə tutulan, İspaniyanın Qranada şəhərində keçirilən anti-Azərbaycan ruhlu görüş oldu. Həmin görüşdə iştirakdan imtina edən Prezident İlham Əliyev siyasi iradəsi ilə sübut etdi ki, Azərbaycanla təhdid, təzyiq dili ilə danışmaq olmaz. Prezident İlham Əliyevin həmin görüşdən imtina etməsi siyasi şou oyunçularının rəsmi İrəvana dəstək planlarını alt-üst etdi. Qarabağda yaşayan erməni icmasının nümayəndələri ilə Azərbaycanın mərkəzi hakimiyyətinin nümayəndələri arasında keçirilən Yevlax, Xocalı görüşlərinin davam etdiyi, danışıqlar zamanı humanitar yardımlarla bağlı irəli sürülən təkliflərin həlli istiqamətində lazımi işlərin görülməsi ilə bağlı tərəflər arasında razılığa əminliyin yarandığı məqamda Qranada görüşü xəyalı İrəvana dəstəyə haqq qazandırmaq saxtakarlığı idi.

Fransanın sabiq Avropa və xarici işlər naziri Katerina Kolonnanın İrəvana səfəri, rəsmi Parisin guya öz təhlükəsizliyini təmin etmək üçün Ermənistana 12,5 milyon avroluq «humanitar yardım» adı ilə silah göstərmək planı da ssenarinin bir parçası, Ermənistanı avantüraya cəlb etmək niyyətinin nəticəsi, bölgədə cərəyan edən hadisələrin ilk mərhələsi idi. Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrelin Laçın yolunun dərhal açılması ilə bağlı həyasızlığı, hayların quraşdırdıqları «blokada», «humanitar fəlakət», «soyqırımı» barədə hikkəli açıqlamaları, Aİ-nin Mülki Missiya adı ilə Ermənistanda jandarm rejimi yaratması, «binokl diplomatiyası» COP29 ərəfəsində Azərbaycana təsir imkanlarını formalaşdırmaq naminə eyni mənbədən təşkil olunan təxribatların mərhələ üzrə davam edən növbəti tamaşası idi. Separatçıların Xankəndidə keçirdikləri qeyri-qanuni «seçkilərindən» söz açmağı məsləhət bilməyən, Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyinə görə rəsmi Bakıya «məsuliyyət daşıdığını xatırladan» Qərbin borrelləri, o cümlədən Bakıya səfəri zamanı hüquqları pozulan, Ermənistanın etnik təmizləmə siyasətinin qurbanları olan Qərbi Azərbaycan nümayəndələri ilə görüşməyə ehtiyac duymayan Almaniyanın xarici işlər naziri Annalena Berbok ermənipərəst mövqeləri ilə bölgədə vəziyyəti daha da gərginləşdirdilər. Bölgəyə səfəri çərçivəsində Ermənistanda Qarabağdan könüllü köçən ermənilərlə görüşdükdən sonra Bakıya gələn, Azərbaycanın, İrəvanın, xüsusilə Qərbi Azərbaycanın tarixi, Cənubi Qafqazın yerləşdiyi ərazinin geosiyasi əhəmiyyəti barədə mükəmməl məlumatı olmadığı halda erməni düşüncəsi ilə açıqlama verən, «məzlum» ermənilərlə görüşünü uzun-uzadı, ürək ağrısı ilə təsvir edən xanım nazir Berbok Hayastandan zorla çıxarılmış Qərbi azərbaycanlı qaçqınlarla görüşməyi məsləhət bilmədi. ABŞ-ın göstərişlərinə uyğun anti-Azərbaycan siyasətini davam etdirən Qərbin ikiüzlü siyasətini təsdiqləyən bu kimi faktlar istənilən qədərdir.

Avropa Parlamentinin oktyabrın 24-də Azərbaycanda insan hüquqları pozuntuları ilə bağlı qəbul etdiyi qətnamə bu siyasətin daha iyrənc şəkildə davamıdır. Qətnamədə COP29 ərəfəsində guya Azərbaycanda fəallara, jurnalistlərə, müxalifət liderlərinə qarşı nəzərəçarpacaq dərəcədə güclənən repressiyaların pislənməsi «stəkanda fırtına yaratmaq» niyyətindən qaynaqlanır.

Ötən illərdə də Avropa Şurası Parlament Assambleyası tərəfindən guya Azərbaycanda «siyasi məhbus» məsələsi ilə bağlı qrosslardan ibarət monitorinq qrupları yaradılsa da, kimlərin bu kateqoriyaya mənsub olduqları barədə suala hələ də münasibət bildirilməyib. Yəni, kimlərin «siyasi məhbus» hesab edilməsi barədə beynəlxalq təşkilatların dəqiq dəyərləndirmə mexanizmləri yoxdur. Bu baxımdan istənilən ölkəyə təsir vasitəsi kimi istifadə olunan «siyasi məhbus» axtarışları heç bir nəticə verməyib. Avropa Parlamentinin səlahiyyətləri çatmasa belə ölkəmizdə siyasi baxışlarına görə həbs edilməyən məhkum axtarmaq, onları azad etmək, «repressiyaları dayandırmaq» kimi Azərbaycan hakimiyyətinə təkəbbürlü ittihamları irəli sürməsi müstəqil, suveren respublikanın daxili işlərinə müdaxilə, qeyri-qanuni, siyasi etikadan kənar hərəkətdir. Səlahiyyətlərini aşaraq guya davam edən insan hüquqları pozuntusuna görə ölkəmizin COP29-a ev sahibliyi etməsini belə məqbul hesab etməyən Aİ rəsmilərinin, xüsusən də Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin konfransdan istifadə edərək Azərbaycana beynəlxalq öhdəliklərini xatırlatması Avropada davamlı pozulan insan hüquqlarını görməyən siyasi korluqdan başqa bir şey deyildir. Qətnamənin qəbulu zamanı səsvermədə iştirak edən deputatlardan 453-ünün qətnamənin lehinə, 31-nin əleyhinə səs verməsi, 89 nəfərin bitərəf qalması özlərinin də etiraf etdikləri kimi qurumda hələ də davam edən korrupsiya hallarının mövcudluğunu göstərir. Davamlı olaraq erməni lobbisinin maliyyəsindən yararlanan Avropa Parlamentinin bir neçə üzvünün tanınmış erməni iş adamlarından aldıqları rüşvətlərə görə həbs olunması yaxın illərdə baş verən hadisələrdir.

Ölkəmizə qarşı əvvəlki qərəzli yanaşmaların davamı olan AP-nin son qətnaməsində Azərbaycan-Ermənistan münasibətlərinə toxunulmasının açıqlaması isə belədir: «Qaraca qızın dərdi varmış.»

Qərbin Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmaması üçün törətdiyi təxribatları «unudan» avropalı öncəgörənlərin bölgədə sabitliyin yaranması üçün bütün vasitələrdən istifadə edərək Azərbaycanın xidmətlərini görməzdən gəlmələri 30 il üzləşdiyimiz və ağrı-acısını yaşadığımız ikili standartların daha bir təzahürüdür. Ermənistan-Azərbaycan şərti sərhədinin delimitasiyası prosesindəki və danışıqlardakı irəliləyişi alqışlayan Avropa Parlamentinin, eyni zamanda, Ermənistana qarşı hər hansı hərbi əməliyyatın Azərbaycanın Aİ ilə münasibətlərinə zərər verəcəyi barədə xəbərdarlığı siyasi oyunbazlıqdır. Oğrunun doğruya qabaqdangəlmişlik jestidir. Özlərinin müəyyənləşdirdikləri qanunlara, prinsiplərə əməl etməyən avropalı başbilənlərin nəzərinə bəzi məqamları çatdıraq.

Avropa İttifaqına üzv ölkələr tərəfindən müəyyənləşdirilən Avropa Parlamentinin üç əsas səlahiyyəti var: Avropa İttifaqına dair qanunlar qəbul etmək, həmin qanunların yerinə yetirilməsinə nəzarət etmək və Avropa İttifaqının büdcəsinin icrasına nəzarət etmək.

Yəni, Avropa Parlamentinin, Fransa, Niderland kimi qitənin bəzi ölkələrinin İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərdən sonra daim inkişafda olan qüdrətli ölkəmizə qarşı münasibətinin daha da aqressivləşməsi respublikamıza olan qısqanclıqdan, paxıllıqdan qaynaqlanır. Dünya ictimaiyyətinin dəstəklədiyi ən mühüm beynəlxalq tədbirlər Azərbaycanda keçirilir. Xüsusilə, ilk Avropa Oyunlarının uğurlu təşkilindən sonra Qərbin ölkəmizə qarşı qərəzli münasibəti gözləniləndir. Qərbi Azərbaycandan zorla çıxarılan soydaşlarımızın hüquqlarının qorunmasını 30 il «unudan» Avropa təsisatlarının üç-beş cinayətkarın həbsini antidemokratik hal kimi qələmə verməsi torbadakı pişiyin miyoltusuna bənzəyir. Yəni, korrupsiyalaşmış qurumun yeni maliyyə mənbəyi axtarmaq naminə etdiyi bu gedişlər riyakarlıq, demokratiyaya qara yaxmaqdır. Avropanın özündə insan haqlarının pozulmasına göz yuman, Ermənistandan istifadə etməklə Azərbaycanla təhdid dili ilə danışmağa çalışanların planları islamofobiyanın təzahürü, seperatizmə dəstəkdir.

Gürcüstanı Avropa İttifaqına üzv qəbulu ilə şirnikləndirən təsisatların rəsmi Tbilisinin «münasibətlərin yaxınlaşmasının» əsl mahiyyətini duyduqdan sonra haqlarını tələb edən gürcülərə dirsək göstərən Aİ-nin bu günlərdə bölgədə apardığı «zorən təbib» siyasətinin məqsədi artır bəllidir. Regional təhlükəsizliyə özlərinin milli maraqları baxımından yanaşan, dövlətlərlə təzyiq və təhdid dili ilə danışmaq təcrübəsini sınaqdan keçirən Avropa İttifaqının Cənubi Qafqaz niyyəti baş tutmadı. Bu günlərdə qonşu ölkədə keçirilən parlament seçkilərində «Gürcü Arzusu - Demokratik Gürcüstan"» Partiyasının qalib gəlməsi ilə Aİ-nın bölgəyə atdığı tilov boş qaldı. Gürcü xalqı siyasi iradə göstərərək xarici müdaxilələrə «yox» dedi. Beləcə, Ermənistanı ələ alaraq, Gürcüstana şirin vədlər verərək bölgədə Azərbaycanı təkləmək istəyən ABŞ kimi Qərb də qapı arxasında qaldı. Seçkilərdən əvvəl müxalifyönlü qeyri-hökumət təşkilatlarını maliyyələşdirməklə Gürcüstanın daxili işlərinə, qanunvericilik prosesinə müdaxilə alınmadı. Xalq qətiyyətlə bildirdi ki, Gürcüstanın daxili və xarici siyasəti yalnız gürcü xalqının və onun seçdiyi siyasi qüvvələrin iradəsinə uyğun olaraq formalaşmalıdır. Bu yanaşma Azərbaycanla Gürcüstan arasında regionda sülh və əməkdaşlıq imkanlarının gücləndirilməsinə töhfə verəcək. Cənubi Qafqazda siyasi sabitlik bölgə dövlətlərinin birgə səyi ilə formalaşacaq. Gürcüstanda baş verənlərdə «Azərbaycan izi» axtaranların niyyətləri öz başlarında çatlayacaq. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi də iki tərəfin razılığı əsasında, kənar müdaxilələr olmadan imzalanacaq.

Uzaqgörən siyasəti daim özünü doğruldan Prezident İlham Əliyev Gürcüstana səfəri zamanı İrəvanla Bakı arasında imzalanacaq sülh sazişi üçün ən münasib yerin ünvanını da açıqlamışdı: «Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi.» Bölgədə sülhün, sabitliyin bərpası üçün liderlik qətiyyəti göstərən Prezident İlham Əliyevin inamla söylədiyi sözlərin doğruluğunu zaman da təsdiqləyəcək. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi xarici müdaxilələr olmadan imzalanacaq. ABŞ-ın, Qərbin COP29-un ətrafında yaratdıqları qara dumanlar yox olacaq. Bütün tədbirləri uğurla başa vuran Azərbaycanın «Yaşıl dünya naminə həmrəylik» çağırışı planetimizin hər tərəfində eşidiləcək, dəstəklənəcək.

***Xuraman İsmayılqızı***

# Gürcü ekspertləri:
# “Xalq Qərbin iç üzünü gördü və onun tərəfdarlarına səs vermədi”




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*



Gürcüstanda parlament seçkiləri keçirildi, lakin müxalifət və onun arxasında duran xarici qüvvələr hələ də etiraz aksiyaları və səsvermənin nəticələrinin tanınmaması yolu ilə ölkədəki vəziyyəti sarsıtmağa çalışırlar. Bəs onun nəticələrin nəzərdən keçirilməsinə nail olmaq üçün real şansı varmı? Gürcüstanlı politoloqlar bu məsələ ilə bağlı fikirlərini ”Caliber” analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin rəyini oxucularımıza təqdim edirik.



Gürcü siyasətçisi və alimi, Gürcüstan Mühəndislik Akademiyasının akademiki, Gürcüstan Politexnik Universitetinin Təbii Fəlakətlər üzrə Elmi Mərkəzinin direktoru Temur Maisuradzenin fikrincə, real geosiyasi vəziyyət elədir ki, məlumatlı, düzgün fikir söyləmək lazımdır.



”Gürcü arzusu” Gürcüstanda postsovet dövrü ərzində gürcü xalqının ardıcıl 4 dəfə seçdiyi yeganə siyasi qüvvədir və bu da yəqin ki, nəyisə deyir. Bəli, mənim də bir seçici kimi hakim partiyaya bəzi suallarım ola bilər, amma mən buna həssas və ayıq baxmalıyam- bildiyiniz kimi, atları döyüşün ortasında dəyişmirlər. Gürcüstanda müxalifət əsasən gənclərə güvənir və bu, əlbəttə ki, yaxşıdır, lakin təəssüf ki, gənclər Gürcüstanın ötən əsrin 90-cı və ya 2000-ci illərindəki siyasi reallıqlarını sadəcə xatırlamırlar, onların müqayisə edəcək heç nələri yoxdur. Gürcüstan gəncləri indi yalnız Avropanın təbliğ etdiyi gündəmi anlayır. Ona görə də, mən indi Gürcüstanın suverenliyini əlindən alan və dövləti sarsıdan qüvvələri dəstəkləmirəm, mən şüurlu şəkildə ”Gürcü Arzusu”nun lehinə seçim edirəm.

Fikrimcə, Gürcüstanda küçə etirazları tezliklə sönəcək, sadəcə ona görə ki, seçicilərin və müxalifət partiyalarının bu hissəsində seçki məntəqələrində saxtakarlığı təsdiqləyən hər hansı sübut yoxdur. Ona görə də, indi hökumət seçkilərin təhlili üçün bütün lazımi sübutları təqdim etməyə hazırdır, üstəlik, bütün ölkələrdən müşahidəçiləri bu prosesə dəvət edir, yəni bütün seçki qutularını sayıb yoxlayır və seçkilərin şəffaflığına öz gözləri ilə baxır. Gürcüstanda hakimiyyət tamamilə sakitdir, haqlı olduğuna əmindir və əgər kimsə hansısa aqressiv etirazlara keçməyə cəhd etsə, qırmızı xətləri keçsə, o zaman hakimiyyət güc tətbiq edə bilər. Amma ümid edək ki, bu, belə olmayacaq.



Ümumiyyətlə, bu müxalifətin tərəfdarları hələ səsvermə yaşına çatmayanlar, yəni gürcü cəmiyyətinin çox gənc nümayəndələri və ya 30 ildir ki, Qərbin yer üzünün ağası olması və cənnət yaradacağı fikri başlarına sığışdırılmış gənclərdir. Narazıların digər hissəsi Qərb qrantları hesabına yaşayan QHT nümayəndələridir ki, bu da təxminən 25 min nəfərdir. Bütün bu insanlar, o cümlədən onların ailə üzvləri həqiqətən də bu pullar üzərində mövcuddur və tamamilə aydındır ki, onlar bundan sonra da Qərblə maksimum əlaqə axtaracaqlar və onun siyasətini dəstəkləyəcəklər. Təəssüf ki, gürcü cəmiyyətinin bu kateqoriyaları hər şeyi, sözün əsl mənasında Gürcüstanın bütün suverenliyini verməyə hazırdırlar, Qərblə münasibətləri korlamamaq üçün bir ayaq üstə durmağa hazırdırlar. Onlar da sadəlövhcəsinə inanırlar ki, Qərbin gəlişi ilə Gürcüstanda, necə deyərlər, süd çayları axacaq.

Amma Gürcüstanda çevriliş, məncə, mümkün deyil. Bunun baş tutması üçün Gürcüstanda xarici maraqların təbliğatçıları ilə əməkdaşlıq edən, öz vətənlərini, əhalinin bir hissəsini satmağa hazır olan çürük, korrupsioner hakimiyyət olmalıdır. Gürcüstanın Allaha şükürlər olsun ki, hökumət cəhətdən bəxti gətirib. Rusiya-Ukrayna müharibəsindən sonra Qərbin maskaları atıldı və çox şey aydın oldu - Gürcüstan cəmiyyəti əsl Qərbin necə ola biləcəyini gördü və xatırladı.

Gələcəyə gəlincə, düşünürəm ki, seçkilərdən sonrakı hadisələr belə bir ssenari üzrə inkişaf edəcək: əvvəlcə Qərb hakimiyyəti silkələməyə çalışacaq, bunun da nəticə vermədiyini anlayanda, ikiüzlü Janus kimi, heç bir şey olmamış kimi iqtidarla bir dialoq, yaxınlaşma prosesinə başlayacaq. Və bəlkə, hətta deyəcək ki, nəhayət başa düşə bildik və vəziyyəti təhlil etdikdən sonra məlum oldu ki, Gürcüstanda seçkilər ədalətli və şəffaf keçib. Bu, Qərbdir, bu onun strategiyasıdır”,- deyə T.Maisuradze bildirib.

”European Perspective” layihəsinin analitiki və redaktoru Beso Kurtanidzenin fikrincə, Gürcüstandakı vəziyyət Ukraynadakı müharibə kontekstində nəzərdən keçirilməlidir.

”Təsəvvür edək: Gürcüstanın NATO üzvü olduğu vəziyyətdə NATO-Rusiya futbol matçı keçirilir. Biz bu komandanın, yəni NATO-nun üzvü olmaq istədiyimizi bildirdik, lakin oyun zamanı məlum oldu ki, Gürcüstan ona qoyulan gözləntilərin öhdəsindən gələ bilməz. Odur ki, Qərbin məntiqinə görə, indiki ”Gürcü arzusu” hökuməti ləğv edilməli və onun yerinə Qərbin göstərişlərinə ciddi əməl edəcək, Rusiyaya qarşı sanksiyalar tətbiq edəcək, rus turistləri ölkəyə buraxmayacaq hakimiyyət gətirilməlidir.

Bu gün Gürcüstanda baş verənlər Qərbin hakimiyyəti dəyişmək üçün həyata keçirdiyi xüsusi əməliyyatdır. Vəziyyəti sarsıtmaq üçün bu işlər seçkilərdən əvvəl həyata keçirilib. Məntəqələrdə çoxlu sayda xarici müşahidəçi olub, lakin onlar gün ərzində heç bir ciddi qanun pozuntusu olmadığını bildiriblər. Lakin sonradan seçkilərdə seçici saxtakarlığı mövzusunu qızışdıran kampaniya başladı.

Müxalifətdən olan dostlarımdan soruşdum: sizin mitinqə çıxmağınıza səbəb olacaq qanun pozuntuları varmı? ”Xeyr” deyə mənə cavab verdilər. Amma Mərkəzi Seçki Komissiyası ilk nəticələri dərc edəndən sonra onlar rəsmi siyahıların dəqiq olmadığını və hökumətin seçkiləri saxtalaşdırdığını bildiriblər. Məsələn, müxalifət liderlərindən biri Nikoloz Qvaramiya deyib ki, seçkilər Rusiya tərəfindən saxtalaşdırılıb, baxmayaraq ki, bu barədə hələ heç bir dəlil yoxdur, amma bu, yaxşıdır, çünki hətta ABŞ belə Rusiyanın Trampın qalib gəlməsinə kömək etdiyi iddiasına heç bir sübut təqdim edə bilmədi. Absurddur-”, o qeyd edib.

Ekspertin fikrincə, vəziyyət narahatedicidir, çünki Qərbin Gürcüstan üzərində təsir rıçaqları var. Ola bilsin ki, larinin məzənnəsi devalvasiya olunsun və vizasız rejim dayandırılsın ki, bu da Gürcüstan əhalisinin əksəriyyətinə təsir edəcək.

”Bəli, kədərlidir, çünki indi bir çox ailələr Qərbin yardımından asılıdır və QHT-lərə ayrılan maliyyənin kəsilməsi onların rifahına təsir edəcək. Bizim təcrid olunmuş vəziyyətdə yaşamaq üçün neftimiz və ya başqa resurslarımız yoxdur. Onu da unutmaq olmaz ki, Amerika Birləşmiş Ştatları dünyanın müxtəlif yerlərində ildə bir və ya iki hökuməti devirir. Kiyevdəki Maydandan 10 il keçir və indiyədək nümayişçilərin müxalifət tərəfindən öldürülmədiyi sübuta yetirilməyib. Və Yanukoviç, xatırladığımız kimi, sonra ölkədən qaçdı. Belə bir ssenari Gürcüstanda da qorxuludur”, - deyə B.Kurtanidze yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
1 noyabr
2024-cü il

# Erkən yaşda D vitamini çatışmazlığı bu xəstəliklərə yol açır!






***Yeni bir tədqiqat erkən yaşda D vitamini çatışmazlığının otoimmun xəstəliklər riskini artıra biləcəyini göstərir. Xarici medianın yazdığına görə, Monreal şəhərində yerləşən McGill Universitetinin tədqiqatçıları siçanlar üzərində apardıqları təcrübədə D vitamini çatışmazlığının diabet kimi otoimmun xəstəliklərlə əlaqəsini araşdırıblar.***

Nəticələr erkən yaşlarda D vitamininin azlığının timusun inkişafına təsir göstərdiyini və bunun bədənin sağlam toxumalara qarşı həddindən artıq immun reaksiya verən T hüceyrələrinin artmasına səbəb olduğunu ortaya qoyub.

Tədqiqatın müəllifi, fiziologiya professoru Con Uayt qeyd edib ki, D vitamini timusun normal inkişafı və öz-özünə reaktiv T hüceyrələrinin təmizlənməsi üçün vacibdir. Onun sözlərinə görə, bu proseslər bədənin öz toxumalarına qarşı həddindən artıq reaksiya verməməsi üçün mühümdür. D vitamini T hüceyrələrinin funksiyasını modullaşdıraraq bədənin öz zülallarını xarici patogenlərdən ayırmaqda rol oynayır.

Timusda epitel hüceyrələrinin azalması, bu vitaminin çatışmazlığı ilə əlaqələndirilib ki, bu da otoimmun xəstəliklərə səbəb ola biləcək T hüceyrələrinin sayının artmasına yol açır. Tədqiqat göstərir ki, D vitamininin çatışmazlığı ilə timusda yaşlanma sürətlənir və bununla əlaqəli olaraq diabet də daxil olmaqla otoimmun xəstəliklərin riski artır.

Araşdırmanın nəticələri "Science Advances" jurnalında dərc olunub və bu tapıntılar D vitamininin yalnız sümük sağlamlığı üçün deyil, həm də normal immun funksiyası üçün nə qədər əhəmiyyətli olduğunu vurğulayır.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Sürücülərə xəbərdarlıq - bu zolaqlara girənlər 100 manat cərimələnəcək...




Bakının bir sıra küçələrində təşkil edilmiş COP29 zolaqlarında sabahdan minik avtomobilləri ilə hərəkət etməyə icazə verilməyəcək.

Trend xəbər verir ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) bununla bağlı oktyabrın 15-də verdiyi icazənin müddəti dünən başa çatıb. Noyabrın 1-dən etibarən COP29 zolaqlarına daxil olan sürücülər 100 manat cərimə ediləcək, eləcə də onlara 3 bal yazılacaq.

# Metroda iki qadının telefonu oğurlandı

***Bakı metrosunda 2 nəfər qadının 440 və 800 manat dəyərində mobil telefonları oğurlanıb. SİA xəbər verir ki, bu barədə polisə məlumat daxil olub.***

Metropolitendə Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməllərini törətməkdə şübhəli bilinənlər, əvvəllər də məhkum olunmuş N.Vəliyev və İ.Babayev müəyyən olunaraq saxlanılıblar. Faktla bağlı araşdırma aparılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700